# Şahgəldiyev Xalid





**”Elmdə heç bir ideya əhkam deyil; hər bir adam ən məşhur alimin ən çox yayılmış ideyasını da istənilən vaxt yenidən yoxlamaq səlahiyyətinə malikdir”**
***(Əbu Turxan)***

Sizcə savadlı adam necə olur?! Sizcə ümumiyyətlə savad nə deməkdir?! Vacib olan bilirsiz nədir?! Savadlı adam dedikdə çoxlarının ağlına xarici dil bilən, ali təhsili, çox kitab oxumuş adam obrazı canlanır. Bu gün savadlılıq konkret sahə haqqında informasiya, dünyagörüşü, yorulmadan konkret hədəfə çatmaq üçün fəaliyyət və əlbəttə əlaqə qura bilməkdir. Savadlı olmaq üçün əlbəttə kitab oxumaq, ali təhsil almaq və ya xarici dil bilmək və ali məktəbdə oxumaq vacibdir. Həyatda nəsə öyrənmək üçün dinləmək bacarığı da mütləqdir. Ali məktəbdə oxuduğunuz zaman yolunuzun düzgün seçilməsi, seçdiyiniz yol üzrə maksimum çox informasiya, əlaqələr qurmaq bacarığıdır, dinləmək bacarığıdır. Savadlı insanı savadsızdan fərqləndirən əsas xüsusiyyətlərdən biri də məhz dinləmək qabiliyyətidir. Dinləyə bildikcə hər birimizin qarşısında çox böyük sərvət, çox böyük imkanlar yaranır ki, yaranan fürsət və imkanlardan zamanla öz xeyrimizə istifadə etmək imkanı olur.

İnsan hər zaman elmə, biliyə can atmalıdır. Həyatda nəsə əldə etmək üçün, daima nəsə öyrənmək üçün əziyyət çəkməlidir. Savadlı insanların sayının artması təkcə insanın özünə deyil, onun məxsus olduğu cəmiyyətin müsbət gələcəyi üçün vacib faktordur. Gələcəyini qurmaq üçün daha uşaqlıq çağlarından əzmlə çalışan, qarşısına qoyduğu məqsədlərinin ardınca gedən dostlarımız var. Bunlardan biri də, Xaliddir.

Xalid Şahgəldiyev Zəbulla oğlu, sentyabrın biri 2001 -ci ildə Salyan rayonunda dünyaya göz açmışdır. Hal-hazırda Sabirabad rayon Zalqarağac kəndində yaşayır. Xalid, 2008-ci ildə Mikayılov Adşirin adına Zalqarağac kənd tam orta məktəbin birinci sinfinə qədəm qoymuşdur və hal-hazırda həmin məktəbin 11-ci sinif şagirdidir. Xalidin sevdiyi fənn azərbaycan dili, ən sevdiyi müəllimi isə Babayev Zəfər müəllimdir. Xalid, dərslərini yaxşı oxuyur və 9-cu sinfi əla qiymətlərlə bitirmişdir. O, boş zamanlarında çoxlu dram əsərləri oxuyur, mütaliə vasitəsilə dünyagörüşünü və nitq qabiliyyətini artırır. Xalidin arzusu mühəndis olmaqdır ki, orta məktəbi bitirdikdən sonra yüksək ali təhsil alıb silah mühəndisliyi üzrə ixtisaslaşmaqdır niyyəti. Onun ailəsi də Xalidi daim dəstəkləyir və onun hər bir istək və arzularının gerçəkləşməsində yardımçıdır. Valideynləri onunla dost, sirdaş kimi münasibət bəsləyir və çalışırlar ki, övladlarının parlaq gələcəyi üçün əllərindən gələni layiqli bir valideyn kimi əsirgəmirlər. Xalidin ailəsi 4 nəfərdən ibarətdir.

Atası Şahgəldiyev Səbulla Sayəddin oğlu 8 avqust 1978-ci il təvəllüdlüdür. Hal - hazırda dispeçer işləyir. Min bir əziyyətlə halal çörəyini qazanaraq övladlarının gələcəyi və onlara uğurlu bir taleyin nəsib olması üçün çalışır.



Anası Şahgəldiyeva Xumar İlyas qızı 21 iyul 1979-cu il təvəllüdlüdür. Evdar xanımdır. Övladlarına qarşı qayğıkeş və diqqətcil anadır, daima onların dərsləri və tərbiyəsi ilə məşğul olur və onların parlaq bir gələcəyə sahib olmasını istəyir.

Xalidin Sənan adlı bir qardaşı var. Sənan 24 oktyabr, 2011-ci il təvəllüdlüdür. Hal- hazırda ikinci sinifdə oxuyur. Sənan qardaşından həm təhsil, həm tərbiyə baxımından çox şey öyrənərək çalışır ki, onun kimi dərslərini yaxşı oxuyub fərqlənənlərdən olsun.

Elm təşkilatlanmış bilik olduğundan biz də jurnalımız adından, Xalidə məqsədlərinə çatmağı, daima uğurlu olması üçün təşkilatlanmış bilik sisteminə malik olmasını və daha çox oxuyaraq sağlam və uğurlu bir taleyə sahib olmasını arzu edirik. Həyat yolu açıq, ömrü parlaq olsun.



# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

## DÖVLƏT BAYRAĞI



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraq qadağan edilmiş və sovet bayrağı ilə əvəz olunmuşdur.

Sonralar Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri olan üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.



## DÖVLƏT GERBİ

Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində həmin gerb qəbul edilməmişdir. Sonralar - 1990-cı ildə Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırılmışdır. Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illərdə müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuşdur. Müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrindən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Dövlət gerbi haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993-cü il aprelin 5-də təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsviri vardır.

Gerbin rəngli təsvirindən ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları habelə qalxanın düymələri və palıd qozaları qızılı rəngdədir.

## DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin Milli Himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın Milli Himnini qəbul etməyə imkan vermədi. Azərbaycan Respublikasının ilk Dövlət Himni 1945-ci ildə Azərbaycan SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S. Vurğun və S. Rüstəmin, musiqisi Ü. Hacıbəyovun) 1992-ci il mayın 27-də parlament ”Azərbaycan Respublikasının Dövlət Himni haqqında” Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş təntənəli ”Azərbaycan marşı” Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

Musiqisi: **Üzeyir Hacıbəyovun,**
Sözləri: **Əhməd Cavadındır.**

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə - gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

# Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır

**Heydər Əlirza oğlu Əliyev**



**Zərifə Əziz qızı Əliyeva**
Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**
Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.



# Qəribli Ülvi





**"Adamlar öz ixtisaslarına aid mövzuda ehtiyatla danışır. Bilmədikləri mövzularda isə daha ürəkli olurlar və onlara elə gəlir ki, bu - fəlsəfədir"**
***(Əbu Turxan)***

Elm sənin əməli və nəzəri fəaliyyətinin spesifik sahəsidir. Bilikli insan qiymətli sayılır. İstedad və qabiliyyəti olanlar elmdə inkişaf edib ali mərtəbəyə çatırlar. İnsanlar bir-birindən biliklə üstündürlər. Sən bilik öyrənməklə elmin zirvəsinə yüksəlirsən. Biliyin artdıqca ağlında parlayar və hikmətli olarsan. Məqsədinə müvafiq seçdiyin elmi ətraflı öyrənməklə çətinliklərə dözüb ona dərindən yiyələn. Öyrəndiyinin mənasını anla, onu dərk et, yadda saxla və kamil bilici ol. Elm sənin nurundur və yoluna işıq saçır.

Öyrəndiyin elmi digərlərinə öyrətmək böyük xeyirxahlıqdır. Bundan faydalananlar sənə təşəkkür edərlər. Elmsiz və biliksiz insanın könlü bar verməyən ağaca bənzər. İnsan elm və biliklə nemət yaradaraq ömrünü dəyərləndirər. Bu həyatda məqsədi olan, elm və bilik əldə etmək üçün çalışan dostlarımızdan biri də, Qəribli Ülvidir.

Qəribli Ülvi Pərviz oğlu, sentyabrın 5-i, 2010-cu ildə Bərdə rayonunda mehriban və zəhmətkeş bir ailədə anadan olub. Həyatı yeni-yeni dərk etməyə çalışan Ülvi, 2016-cı ildə, Bərdə rayonunda yerləşən 8 nömrəli tam orta məktəbin birinci sinfinə qədəm qoymaqla ilk təhsil həyatına atılmışdır. Hal-hazırda həmin məktəbin 3c sinif şagirdidir. Bütün dərsləri çox sevərək verilən tapşırıqları vaxtlı-vaxtında yerinə yetirən Ülvinin ən sevdiyi müəllimi Zərgərova Könül müəllimdir. O, boş zamanlarını idman edərək və futbol oynayaraq keçirir. Ülvi artıq bir ildir ki şahmatla, 2 ildir ki, idman döyüş növü olan kinq-boksla məşğuldur. Ülvinin məqsədi gələcəkdə savadlı və tanınmış həkim olmaqdır. Bu peşə çətin olduğu qədər məsuliyyətli və faydası böyük olan peşədir. Ailəsi də onun bu istəyini dəstəkləyərək daim ona öz köməkliklərini əsirgəməyəcəyini bildirir. Onun ailəsi 5 nəfərdən ibarətdir.

Atası Qəribov Pərviz Tofiq oğlu, noyabr ayının 7-si, 1985-ci ildə anadan olmuşdur. Pərviz bəy ticarətlə məşğuldur.

Anası Qəribova Arzu Mahan qızı 17 iyun 1985-ci il təvəllüdlüdür. Arzu xanım ibtidai sinif müəllimidir, amma hazırda işləmir.

Ülvinin Aysu və Aynur adlı iki bacısı var. Qəribova Aysu iyunun 24-ü 2006-cı ildə anadan olmuşdur. Hal-hazırda 6-cı sinif, Qəribova Aynur isə iyunun 5-i, 2008-ci ildə anadan olmuşdur və hal- hazırda 5-ci sinifdə oxuyur.

Biz isə öz jurnalımız adından Ülviyə daim həyatında bol uğur qazanmağı arzu edirik. Səsin daim yüksəklərdən gəlsin!



# HÜSEYNOV ƏLÖVSƏT





**”Öz bildiyini başqalarına öyrət, başqalarının bildiklərinidə özün öyrən”**
***(Yohan Volfqan Höte)***

Biliyi heç vaxt ali təhsil diplomu ilə məhdudlaşdırmamaq, daim oxumaq və öyrənmək lazımdır. Həyatda insana ürəkdən oxuduqları, bildikləri qalır. İnsana heç nəyi öyrədə bilməzsən, ona ancaq öyrənməyi öz içində tapa biləcəyindən başqa. Oxumağı, öyrənməyi özü seçən, qəlbən elmi sevən şagirdlərimizdən biri də Hüseynov Əlövsətdir.

Hüseynov Əlövsət İxtiyar oğlu 2009-cu ilin yanvarın 17-də Sabirabad rayon Azadkənd kəndində anadan olmuşdur. 2018-ci ildə Sabirabad rayon İbrahim Məmmədov adına Azadkənd kənd tam orta məktəbinin 1-ci sinfinə qəbul olmuşdur. Halhazırda da həmin məktəbin 1-ci sinfində oxuyur. Məktəbə hələ ilk qədəmlərini qoyan Əlövsət əvvəlki günlərdən də daha çox həvəslə artıq dərslərinə yanaşır. Hər bir uşaq kimi ona da məktəb həyatı öncə uzaq gəlsədə,artıq indi onun üçün doğma yerə çevrilmişdir. Bu isə özünü onun dərslərində qazandığı irəliləyişlərdə və müəllimlərinin sevimli şagirdi olmasında göstərir. Əlövsət ona keçirilən bütün fənlərini və həmin fənləri ona sevdirən müəllimlərini sevir və onlara böyük maraqla yanaşır. Dərslərinə əla hazırlaşan Əlövsətin məqsədi gələcəkdə polis olmaq və vətəninin keşiyində durmaqdır. Bunun üçünsə o ilk növbədə ali məktəbə qəbul olmağı qarşısına məqsəd qoyub və bu yolda onun ən böyük dəstəkçiləri ailəsi və müəllimləridir. Əlövsət ona bu yolda yoldaşlıq edən və yolunu işıqlandıran müəllimlərinə çox-çox minnətdar olduğunu bildirir və məqsədinə çatmaq üçün müəlimləri ilə birlikdə bu yolda addımlamaq istəyir. Əlövsətin atası 1978-ci il təvvəllüdlü İxtiyar Hüseynov orta təhsilli, kənd təsərrüfatı işçisidir. Anası 1988-ci il təvvəllüdlü Hüseynova Səbinə isə evdar xanımdır. Onun özü ilə eyni sinifdə oxuyan 2008-ci il təvvəllüdlü adlı bir bacısı var. Valideynləri əllərindən gələni Əlövsətdən əsirgəmirlər və hər zaman onun arxasındadırlar.

Biz də öz növbəmizdə Əlövsətə dərslərində uğurlar arzulayır və məqsədinə çatacaq günü səbrsizliklə gözləyirik. Hər zaman valideynlərinin və müəllimlərinin fəxri olasan. Yolun açıq olsun.



# Onun xalqı üçün gördüyü işlər danılmazdır və gözümüzün önündədir



***Heydər Əliyevin demokratik dəyəri qiymətləndirmək bacarığı, öz xalqına gələcəyi uğrunda düşüncə və baxışları hər kəsi düşündürməyə səsləyirdi və məhz bunun nəticəsidir ki, İlham Əliyevin apardığı siyasət bu ardıcıllığı özündə təsdiqləyir.***

Dövlətimizin mənafeyi uğrunda aparılan siyasi tədbirlər Heydər Əliyev ideyalarının layiqli davamçısı, gənclərimizin fəxri olan İlham Əliyevin timsalında daha işıqlı gələcək vəd edir. Öz xalqının mənafeyi uğrunda çalışan bir insan İlham Əliyev haqqında danışmaq və söz demək çətin və məsuliyyətli olsa da, onunla bağlı xoş hisslər heç vaxt məni tərk etməmişdir. Xalqın ləyaqətli oğlu İlham Əliyevdən danışarkən ilk növbədə, onun neft proqramını işlənib həyata keçirilməsindəki uğurlu fəaliyyəti ölkəmizdə idmanın hərtərəfli inkşiafı, xüsusilə də xarici siyasət məsələlərində əldə olunan böyük nailiyyət Avropa Şurasında Azərbaycanın ləyaqətlə təmsil olunması nəzərə çarpır. Bu isə Azərbaycanın xarici siyasətində aparıcı yer tutur. İlham Əliyevin hələ seçkiqabağı çıxışları. siyasətlə bağlı fikirləri, yenilik duyğusu hər bir azərbacanlını düşündürməyə bilməz. Bütün bu düşüncələr isə bir amala xidmət edir. Onun haqqında ürək sözlərini fəxr və qürurla söyləməyə sövq edir. Hamıya bəllidir ki, hakimiyyət sükanının səriştəli siyasətçi əlində olması Azərbaycanın inkişafı və çiçəklənməsi deməkdir.

Yalnız görkəmli ictimai xadiim Heydər Əliyev səviyyəsində olmağa qadir olanlar prezidentimizin davamlısı ola bilərlər. Bunun üçün Heydər Əliyevin siyasi məktəbini öyrənmək, onun fəaliyyət fenomeninin incəliklərini dərk edib zəngin təcrübəsindən bəhrələnmək lazımdır. Dünya şöhrətli Heydər Əliyevin oğlu İlham Əliyev isə əsl siyasət məktəbi keçmiş bir şəxsiyyətdir. O, atasından dövləti idarə etmək məsuliyyətini, beynəlxalq əlaqələri düzgün istiqamətləndirmək prinsiplərini siyasi şərtləri və siyasi imici yüksək qiymətələndirməyi çox düzgün mənimsəmişdir. Atanın fəaliyyəti oğula örnək oldu. Ata oğul üçün ideala çevrildi. Atadan oğula bir yol başladı. Bu, haqq yoludur.

Uzun əsrlərdən sonra Azərbaycan öz dövlətçiliyi uğurunda mücadiləyə başladı. Milli azadlıq hərakatı yolunda uğurlu addımlar atıldı. Xalq yaranmış vürsəti əldən vermədi. Şah İsmail Xətainin yaratdığı Azərbaycan dövlətinin 20-ci əsrin əvvəllərində (1918-20-ci illərdə) yenidən bərpasının davamına 21-ci əsrin astanasında yenidən başlandı. Bununla yeni dövrə keçidin bünövrəsi qoyuldu. Amma müstəqilliyinin qazanılması ağrısız-acısız ötüşmədi. Nəhəng dövlətlərin əlində tarix boyu alət olmuş Ermənistan ölkəmiz üçün ən güclü əngələ çevrildi. Təzəcə ayaq tutmaq istəyən müstəqil respublikamıza qarşı elan olunmamış müharibə başladı.

Keçmişimizi xatırlamaqla bu günümüzlə müqayisə etmək istədim. Bu gün xalqımız azad, demokratik şəraitdə yaşayır. Bunun səbəbkarı isə məhz İlham Əliyev cənablarıdır. İlham Əliyev ömrünü xalqa həsr edib. Biz hamımız onu sevir, onunla fəxr edirik, onun adı hamı üçün müqəddəsdir.

# İqbal Hüseyinov



**Dünyada nə qədər kitab var belə**
**Çalışıb əlləşib gətirdim ələ**
**Oxudum, oxudum, sonra da vardım**
**Hər gizli xəznədən bir dürr çıxardım.**
**(Nizami Gəncəvi)**

İqbal həyatında bu sözləri özünə şüar seçərək ömür yollarında irəli addımlamağa başlayıb. Həm elm həm idmanda olan uğurları bunu göstərir ki, daima öz üzərində çalışıb, irəli getməyə can atan gənclərimizdən biridir. İqbal Hüseyinov 18 oktyabr 2001-ci ildə Sumqayıtda anadan olub. Sanki doğulanda alnına yazılmışdı onun kiçik yaşlarından olacaq uğurları. 2007 -ci ildə Masazırda Laçın rayonu 15 saylı tam orta məktəbin birinci sinifinə başlayıb. Məktəbi əla oxumaqla yanaşı uşaqlıqdan idmana olan həvəsi ilə seçilib. İqbal uşaq yaşlarından başlayaraq güləş və qaydasız döyüş idman növləri ilə məşğul olurdu. Qaydasız döyüş üzrə 2 dəfə Azərbaycan çempionu olub, dəfələrlə müxtəlif turnirlərdə iştirak etməklə fərdi qalibiyyətlər və mükafatlar qazanıb. İqbal həmçinin güləş üzrə də Azərbaycan çempionatında iştirak edib, 2-ci və 3- cu yerlərdə qərarlaşıb. Bu az yaşına rəğmən əldə etdiyi uğurlar onun gələcəkdə də necə bir şəxsiyyət kimi formalaşacagının əlamətləridir.

2013 -cü ildə müəyyən səbələrdən Kəlbəcər rayon 126 saylı tam orta məktəbin 6-cı sinifinə başlayır. 2018 ci ildə isə ele həmin məktəbin 11-ci sinifini bitirir. DİM-in təşkil etdiyi imtahanlar da da müvəffəqiyyətlə nəticə göstərib, ali məktəbə qəbul olur. İqbal Azərbaycanın ən prestijli universitetlərindən biri olan Azərbaycan Dövlət İqtisad Univeristetinin Dünya iqtisadiyyatı fakultəsinə daxil olub. Hal- hazırda tələbəliyin dadını çıxarmaqla yanaşı, daima öz üzərində çalışır və daha çox nailiyyətlər əldə etmək istəyir. Atası Qaçay bəy və anası Əfsanə xanımın ən böyük arzularından biri övladlarının hər bir uğuruna ürəklə sevinmək və onun arxasında dayanmaqdır. Uşaqlığından bəri qoçaqlığı, əzmi və iradəsi ilə seçilən İqbal gələcəkdə də hər zaman inkişaf edəcəyini deyir.

Onun yaxınları, qohumları, ailəsi, bir sözlə onu tanıyan hər kəs düşünür ki, "İqbal çalışqanlığı, istedadı və zəkasının gücü və səyləri nəticəsində qazandığı uğurların davamı olaraq, gələcəkdə də Azərbaycanın ən hörmətli ziyalılarından biri olacaq. " Biz də ümid edir və arzulayırıq ki, İqbal Azərbaycanın adını layiqincə yüksəklərdə ucaldacaq ən fəal gənclərindən olsun.



# RÜSTƏMLİ HƏMİD



**İnsana arxadır onun kamalı,**
**Ağıldır hər kəsin dövləti, malı.**
***(NİZAMI GƏNCƏVİ)***

Belə bir deyim var ki, "Abdaldan paşa olmaz, taxtadan -maşa". İnsan elmə savada yiyələnə bilmədiyi vaxt sanki, həyatda hər şeyi yarım qoyur. Bilikli biri ilə biliksiz, savadsız birinin düşüncələri arasında, qərarları arasında çox fərq olur. Elm insanın cövhəridir. Bilikli olmaq azdır,gərək bu bilikdən istifadə etməyi bacarasan. Buna isə bacarıq və dünygörüşü şərait yaradır. Öz bacarığı, savadı, biliyi ilə seçilən və bu yolda daha da irəliləməyə çalışan şagirdlərimizdən biri də Rüstəmli Həmid balamızdır. Həmid yaşının az olmasına baxmayaraq, gələcək həyat yolunu öz savadı ilə işıqlandırmağa çalışır və bu yolda özünə kitablarını yoldaş seçib.

Rüstəmli Həmid Fərhad oğlu 31 may 2011-ci ildə Sabirabad rayon Azadkənd kəndində anadan olmuşdur. 2017-ci ildə Sabirabad rayon İlham Məmmədov adına Azadkənd kənd tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Hal-hazırda həmin məktəbin 2-ci sinif şagirdidir. Həmid çalışqan və zəkalı oğlandır, ona tədris olunan bütün fənlərini sevir. Müəllimlərinin sevimli və məsuliyyətli şagirdlərindən olan Həmidin ən sevimli müəllimi Nuranə müəllim, ən sevdiyi fənn isə riyaziyyatdır. Həmidin arzusu dərslərini yaxşı oxuyub ali məktəbə daxil olmaq və polislik peşəsinə yiyələnməkdir. Boş vaxtlarını isə kitab oxumaq və futbol oynamaqla keçirən Həmidin ailəsi 4 nəfərdən ibarətdir. Atası Rüstəmov Fərhad Hüseyn oğlu 28 oktyabr 1970-ci ildə Sabirabad rayon Azadkənd kəndində anadan olub və hazırda təqaüdçüdür. Anası Rüstəmova Kəmalə Arif qızı 4 aprel 1983-cü ildə Sabirabad rayon Azadkənd kəndində anadan olub, hal-hazırda evdar xanımdır. Bacısı Rüstəmli Günay Fərhad qızı hazırda Sabirabad rayon İbrahim Məmmədov adına Azadkənd kənd tam orta məktəbinin 9-cu sinif şagirdidir.

Biz də öz jurnalımız adından Həmid balamıza bolluca uğur və nailiyyətlər arzulayırıq. Hər zaman ailənin fəxri və dayağı olsun!

# GÜNAY RÜSTƏMLİ



**İnci tək sözlər seç, az danış, az din,**
**Qoy az sözlərinlə dünya bəzənsin.**
**Az sözün inci tək mənası olmaz,**
**Çox sözün kərpic tək qiymәti olmaz.**
***(NİZAMİ GƏNCƏVİ)***

Həyatda insan bir çox amal uğrunda çalışır. Lakin, bir çox şeyi əldə etmək üçün öncəlik təhsildə, elmdə, bilikdə olmalıdır. Çünki, bütün amala, istəyə gedən yolda yolumuzu aydınladan bizim savadımız, elmimiz və dünyagörüşümüz olur. Öz məqsədlərinə çatmaq üçün özünə yol- yoldaşı olaraq biliyi, savadı-,elmi seçən şagirdlərimizdən biri də Günay Rüstəmlidir.

Rüstəmli Günay Fərhad qızı 21 iyun 2004-cü ildə Sabirabad rayon Azadkənd kəndində anadan olmuşdur. 2010-cu ildə Sabirabad rayon İlham Məmmədov adına Azadkənd kənd tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Hal-hazırda həmin məktəbin 9-cu sinif şagirdidir. Günay demək olar bütün fənlərini sevir, amma aralarında Azərbaycan dili və riyaziyyat fənlərinə daha çox maraq göstərir. Ona bütün fənləri sevdirən ilk növbədə müəllimləri olmuşdur. Amma, xüsusilə Şahmuradova Zərbəyim müəllim, Qarayeva Gülnar müəllim və Babayeva Əminə müəllim Günayın qəlbində xüsusi yer tutmuşdur. Günay oxuduğu müddət ərzində əlaçı olmuş və daima müəllimlərinin əziyyətini dəyərləndirən şagirdlərindən olmaq üçün çalışmışdır. Günayın arzusu və məqsədi gələcəkdə ali təhsilli, peşəkar müəllim olmaqdır. O, istəyir ki, öz müəllimləri kimi savadlı və şagirdlərinin sevimli müəllimlərindən olsun. O bir neçə dəfə əlaçı "Sertifikatı" ilə də təltif olunmuşdur. Boş vaxtlarını maraqlı filimlərə baxmaqla, musiqi dinləməklə keçirən Günayın ailəsi 4 nəfərdən ibarətdir. Atası Rüstəmov Fərhad Hüseyn oğlu 28 oktyabr 1970-ci ildə Sabirabad rayon Azadkənd kəndində anadan olub və hazırda təqaüdçüdür. Anası Rüstəmova Kəmalə Arif qızı 4 aprel 1983-cü ildə Sabirabad rayon Azadkənd kəndində anadan olub, hal-hazırda evdar xanımdır. Qardaşı Rüstəmli Həmid Fərhad oğlu 31 may 2011-ci ildə Sabirabad rayon Azadkənd kəndində anadan olub,2-ci sinif şagirdidir.

Biz də öz növbəmiz də Günay balamızı uğurlarına görə təbrik edir, gələcək həyatında nailiyyətlərinin artmasını diləyirik. Bir ömür öyrəndiklərin həyatını nura, cəmiyyəti aydınlığa çıxartsın!



# Nuruyeva Firəngiz



**Ey hörmətli müəllim**
**Hər könüldə yerin var.**
**Hər kənddə, hər şəhərdə**
**Sənin meyvələrin var.**

Firəngiz müəllimənin uzun illər çəkən elm yolu öz şagirdlərinin və onların valideynlərinin gözündə çox böyük dəyərə sahibdir. Bunu onların hər bir sözündən, rəğbətindən hiss etmək olar. Firəngiz müəllimə 1965-ci ildə Qazax rayonunun Yuxarı Əski para kəndində dünyaya göz açıb. Süleyman Rüstəm demişkən, "Müəllimin də müəllimi olubdur əlbət". Firəngiz müəllimə də 1972 -ci ildə Aşağı əski para kəndində 1-ci sinifə gedib və müəllimlərindən hər bilgini ilmək -ilmək toxumaqla öyrənib. 1982-ci ildə məktəbi bitirdikdən sonra Bakı Məktəbəqədər Pedoqoji məktəbə daxil olub. Tələbəlik illərində şagirdlərinə öyrədəcəyi hər elmin axırına çıxağa çalışıb. 2005-ci ildə isə artıq savadı və bacarığı ilə seçilən Firəngiz müəllimə 306 saylı məktəbdə Uşaq birliyinin rəhbəri vəzifəsində çalışıb. 2006-2007 ci illərdə ixtisas dəyişmə İnstitutunu bitirərək ibtidai sinif ixtisasına yiyələnmişdir. Və bununla da şərəfli müəllimlik həyatına qədəm qoymuşdur. Hal-hazırda 306 saylı məktəbin ibtidai sinif müəllimi işləyir. Yüzlərlə şagird yetişdirən, ən önəmli təməl bilikləri öyrədən Firəngiz müəllimәni həm şagirdləri həm də valideynlər çox sevir.
Valideynlərdən bəziləri ilə söhbət edərkən Firəngiz müəllimə haqqında çox yüksək və dəyərli fikirlərə sahib olduqlarını gördük. Onların sözlərinə görə, Firəngiz müəllimə şagirdləri arasında heç bir fərq qoymadan, səbr və təmkinlə onları başa salır. Dərslərdə mütəmadi iştirak edən valideynlər bildirdilər ki, hər zaman dərsdən xoş təəssüratlarla ayrılıblar. Mehribanlığı, gülərüzlülüyü və savadı ilə şagirdlərin və valideynlərinin qəlbində taxt qurub Firəngiz müəllimə.

# İsgəndərli Rəsul





***"İnsanlar təhsil üçün yox, təhsil insanlar üçündür və o, insanların konkret ehtiyaclarına uyğunlaşdırılmalıdır"***
***(Əbu Turxan)***

Elm ictimai inkişafın nəticəsidir. Yarandığı gündən insanın fəaliyyəti ilə qırılmaz surətdə əlaqədar olmuşdur. Elm bir tərəfdən, daima insan fəaliyyətinin təsiri altında olmuş, digər tərəfdən isə həmin fəaliyyətə fəal təsir göstərmişdir. Onun əsas vəzifəsi ictimai tələbatın ödənilməsidir. Elm sözü biliksizliyə əks olan biliyi ifadə edir. Biliksizlik isə, məlum olduğu kimi, bu və ya digər hadisə, proses və şeylər haqqında məlumatsızlıq deməkdir. Girişdə verdiyimiz aforizmdə olduğu kimi bu həyatda hər şey olduğu kimi eləcə də təhsil də insan üçündür, insan təhsil üçün yox. Çünki şüurlu ali varlıq olaraq insan övladı bu dünyanın, kainatın əsas hərəkətverici canlı qüvvəsidir. Təhsillənmiş və sağlam psixoloji duruma, təfəkkürə malik olan insan dünyanın gözəlləşməsinə, inkişafına çalışar, onun üçün yeni imkanlar yaradar, beynini onun daha da geniş vüsətdə sürətlənmiş yenilənməsinə xidmət edər. Elmin məqsədi isə insanın intellektual dünyasını zənginləşdirmək,onu daha məlumatlı, daha bilikli etmək və bu biliyin qüvvəyə çevrilməsi sayəsində onun maddi təsir imkanlarını artırmaqdır. Elmi biliyin maddi qüvvəyə çevrilməsi təbiətlə mübarizədə insanı daha güclü edir. Lakin insanın maddi gücü-qüdrəti artdıqca bu gücü düzgün yönəldə bilmək üçün onun mənəvi kamillik səviyyəsi də yüksəlməlidir.

Bizim növbəti jurnal qəhrəmanımız yaşına görə ağıllı və savadlı İsgəndərli Rəsuldur.

İsgəndərli Rəsul Seyran oğlu dekabrın 21-i 2011-ci ildə Sabirabad rayon Qaratəpə kəndində anadan olmuşdur. Getdikcə həyatla tanış olan Rəsul 2017-ci ildə Osman Mirzəyev adına Qaratəpə kənd tam orta məktəbin birinci sinfinə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 2a sinif şagirdidir. Məktəbə başladığı yeni günlərdən müəllimlərin və sinif yoldaşlarının sevimlisinə çevrilən Rəsul balamız, sinifdə nümunəvi və əlaçı şagirddir. Rəsulun ən sevdiyi fənn riyaziyyat fənnidir. O, bütün müəllimlərini çox sevir, lakin Kərimova Zemfira müəllimini xüsusilə vurğulayır. Boş zamanlarını rəsm çəkməklə və babasına kömək etməklə keçirən Rəsulun ən böyük arzusu gələcəkdə vətənə layiqli polis olmaqdır. Bunun üçün əlindən gələni edən ailə çalışır ki, Rəsulun gələcəyi parlaq və təminli olsun.

Rəsulun ailəsi 4 nəfərdən ibarətdir.

Atası İsgəndərov Seyran İsfəndiyar oğlu, 25 fevral 1984-cü il təvəllüdlüdür. Seyran bəy, ticarətlə məşğuldur. Ata və ailə başçısı kimi daima ailəsinə arxa- dayaqdır.

Anası İsgəndərova Aidə Valeh qızı, 28 iyul 1991-ci il təvəllüdlüdür. Evdar xanımdır. O,hər zaman övladlarına böyük dəstəkçi, gözəl ana və gözəl həyat yoldaşıdır.

Rəsulun Fatimə adlı özündən üç yaş balaca 5 yaşlı bacısı var. İsgəndərli Fatimə, martın 11-i 2014-cü ildə anadan olmuşdur.

Biz də öz növbəmizdə "Çağdaş Təhsil" jurnalının adından Rəsula öz həyatında inamlı addımlar atmağı və daima uğur qazanmağı arzu edirik. Yolun açıq, ömrün uğurlarla zəngin olsun!







# Təhməzova Rəqsanə



**Lazım olan bir sənəti axtar sən**
**Veyil-veyil dolanmaq çox yamandır.**
**Lazım olan bir sənəti tapdınmı**
**Möhkəm yapış, əldən vermə, amandır.**
***Ə. CAMİ***

Elm sanki bir müharibə meydanını xatırladır. Yaradıcı alimlər ön cəbhədə olur və əsl döyüşdə burada gedir. Savadlı insanla söhbət hər hansı bir yaxşı kitabı oxumaq qədər dəyərlidir. Elm, təhsil, savad, bilik yolunda irəliləməyə çalışan şagirdlərimizdən biri də Təhməzova Rəqsanədir. O, elmin insan həyatı üçün faydası böyükdür.

Təhməzova Rəqsanə Elşad qızı 5 dekabr 2005-ci ildə Sabirabad rayon Azadkənd kəndində anadan olub. 2012-ci ildə Sabirabad rayon İbrahim Məmmədov adına Azadkənd kənd tam orta məktəbinin birinci sinfinə getmişdir. Rəqsanə məktəbə başladığı ilk vaxtlardan dərslərindəki fəallığına görə digər şagirdlərdən seçilirdi. Hal-hazırda həmin məktəbin 7-ci sinif şagirdidir. Oxuduğu illər ərzində dərslərində əlaçı olmuşdur. Məktəbdə müəllimlərinin sevimli və nümunəvi şagirdlərindəndir Rəqsanə. Onun ən çox sevdiyi fənlər və fənn müəllimləri bunlardır. Coğrafiya fənni və onun tədris edən müəllim Aygün müəllim, rəsm fənnindən Sevda müəllim, ingilis dilindən İntizar müəllim, tarixdən Qiyasəddin müəllim və Səbuhi müəllimdir. Rəqsanə gələcəkdə uğur qazanmaq istədiyi peşə müəllimlik peşəsidir. O deyir ki, ona bu peşəni sevdirən öz fənn müəllimləri olub. Onların öz işlərinə məsuliyyətlə və sevgiylə yanaşması Rəqsanədə daha da maraq hissi yaradıb. Boş vaxtlarında kitab oxumağı sevən Rəqsanə savad qazanmaq yolunda özünə kitabları yoldaş kimi seçmişdir. O deyir ki, mütaliə insan ruhunun qidası, təfəkkürünün dostudur. Həm də rəsm çəkməyə marağı olan Rəqsanə balamız gələcəkdə böyük uğurlara imza atmaq istəyir. Bu yolda onun ən böyük dəstəkçiləri ailəsidir. O deyir ki, ailəsinin başını hər daim uca etməyi və onları sevindirməyi özünə borc bilir. Məktəbdə keçirilən bütün tədbirlərdə qabaqcıl və nümunəvi şagird kimi iştirak edən Rəqsanənin ailəsi 4 nəfərdən ibarətdir. Atası Təhməzov Elşad Fəxrəddin oğlu maşın ustası işləyir. Anası Təhməzova Aygün Afət qızı, evdar xanımdır. Qardaşı Təhməzov Yunis Elşad oğlu 5-ci sinif şagirdidir.

Biz də öz redaksiyamız adından Rəqsanəyə uğurlar arzulayırıq. Müəllimlərinin və valideynlərinin fəxri olmağını diləyirik. Səsin yüksəklərdən gəlsin. Yolun açıq, həyatın uğurlu olsun!

# TƏHMƏZOV YUNİS





**”Oxuduğuna əməl etməyən alim məşəl gəzdirən kora bənzər”**

**(Sədi Şirazi)**

Kim ki, elm öyrənib tətbiq etmir, yeri əkib becərən, amma məhsulundan istifadə etməyən adama bənzəyir. Hər birinin istəyi savadlı, dünyagörüşlü, bilikli, ziyalı bir şəxs olmaqdır. Bu yolda isə bizə kömək edən, yolumuzu işıqlandıran vasitə elmdir. Savadlı insan həmişə həyatında özünə düzgün yön seçə, doğru qərarlar verə bilir. Elmin, savadın, biliyin mahiyyətini dərk edən və bu yolda irəliləməyə çalışan şagirdlərimizdən biri də Yunisdir.

Təhməzov Yunis Elşad oğlu 21 noyabr 2008-ci ildə Sabirabad rayon Azadkənd kəndində anadan olmuşdur. 2013-cü ildə Sabirabad rayon İbrahim Məmmədov adına Azadkənd kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 5-ci sinif şagirdi olan Yunis oxuduğu illər ərzində əlaçı şagird olmuşdur. Yunisin ən çox sevdiyi fənlər Azərbaycan dili, xarici dili və riyaziyyatdır. O, ona elm, savad,bilik verən bütün müəllimlərini sevdiyini deyir. Yunis gələcək həyatını möhkəm təməl üzərində qurmağında qatqısı və əziyyəti olan bütün müəllimlərinə öz təşəkkürünü deyir. Müsahibimiz onu da qeyd edir ki, elmsiz, savadsız, dünyagörüşsüz insan həyatda öz yolunu tapmaqda çox çətinlik çəkər. Yunisin arzusu gələcəkdə Polis Akademiyasında ali təhsil alıb polis olmaqdır və vətəninə layiqli xidmət göstərməkdir. Ədalətin keşiyində şərəflə dayanmaq onun borcudur. Yunis hər zaman çalışır ki, valideynlərinin əziyyətini itirməsin. O, bilir ki, ailəsi onun savadlı biri kimi yetişməsini istəyir. Yunis də əlindən gələni edir. O keçirilən sınaq imtahanlarına qatılır,məktəbdə,sinifdə fəal və nümunəvi şagird olmaq üçün çalışır, axrıncı dəfə keçirilmiş sınaq imtahanında o, 9-cu yer tutmuşdur. Yunis dərsləri ilə yanaşı boş vaxtlarında idmanla da məşğul olur. Onun ailəsi 4 nəfərdən ibarətdir. Atası Təhməzov Elşad Fəxrəddin oğlu, maşın ustası işləyir. Anası Təhməzova Aygün Afət qızı, evdar xanımdır. Bacısı Təhməzova Rəqsanə Elşad qızı, 7-ci sinif şagirdidir.

Biz də öz növbəmizdə Yunisə uğurlar arzulayır, müvəffəqiyyətlərinin daimi olmasını diləyirik. Daim ailənin və müəllimlərinin fəxri olasan. Hər vaxt öyrəndiyin elm və bilik əleyhinə deyil, lehinə işləsin!



# BABAZADƏ AYLİN

















**”Gənclərin hər şeydən əvvəl millətə güvən vermələri vacibdir”**

***(Hüseyn Cavid )***

Yazımızı görkəmli şair H. Cavidin müdrik kəlamı ilə başlayaraq “Gənclik gözəl nemətdir, unudulmaz böyük səadətdir. ” deyimini də xatırlatmaqla gəncliyi məhz daha yaxşı, daha faydalı keçirtmək üçün elmə-təhsilə arxalanmalı və onun yolu ilə qərar tutaraq gedilməlidir fikrinə dəstək verdik.

Hər kəsə məlumdur ki, gənclik bir millətin yaşayıb inkişaf etməsi üçün təməl daşıdır. Hər bir ölkədə dövlətçiliyin müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Müasir dövrümüzdə gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Əsası ümummilli lider Heydər Əliyev öz siyasətində daima gənclərə qayğı göstərmiş onların bir fərd kimi yetişməsinə xüsusi önəm vermişdir. Hal-hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illər ərzində Azərbaycan Respublikasında təhsilin inkişafı istiqamətində aparılan tədbirlər bir daha buna sübutdur.

Jurnalımızın növbəti qəhrəmanı Babazadə Aylin Həsən qızıdır.

Babazadə Aylin Həsən qızı 8 yanvar 2012-ci ildə Mingəçevir şəhərində anadan olub. 2018-ci ildə Bərdə şəhər Zərifə Əliyeva adına tam orta məktəbə daxil olub. Hal-hazırda həmin məktəbin 1d sinifində təhsil alır. Aylinə qələm tutmağı, yazı yazmağı öyrədən sinif müəllimi Vəfa müəllim Aylinin sevimli müəllimidir. Müəllimləri yeni cəmiyyət quruculuğunun memarları adlandıran Aylin bildirib ki, valideynlə bərabər uşağın hər cür əziyyətinə, pisxoloji şıltaqlığına dözmək müəllimin üzərinə düşür. Bu yük ağır olduğu qədər məsuliyyətlidir. Hər bir müəllim güclü psixoloq olmalıdır ki, cəmiyyətin ən həssas təbəqəsi, insanın ən önəmli yaş mərhələsində olan dövrü ilə işləməli olur. Müəllimin əməyi nəticəsində elmli, bilikli dünyagörüşlü insanlar formalaşır və cəmiyyətin əsas qüvvəsinə çevrilirlər. Aylin sevimli fənləri olaraq Azərbaycan dili və riyaziyyat fənlərinin adını qeyd edir. Aylin balamızın həyatda idealı ibtidai sinif müəllimi olan Vəfa müəllimdir. Məhz gələcəkdə müəlliminin yolunu davam etdirmək istəyən Aylin savadlı ibtidai sinif müəllimi olmaq istəyir. Müəllimlərin şagirdlərin biliklənməsində onların dünya görüşünün artmasında çox əməyinin olduğunu qeyd edən qızımız bu işin çox çətin və eyni zamanda məsuliyyətli olduğunu bildirib. Müəllim şagirdlərinə doğma yurdumuzu sevməyi,vətənə bağlılığı, hamının rifahı naminə vicdanla işləməyi öyrədir. Aylin asudə vaxtlarını rəqs etməklə, musiqi dinləməklə və voleybol oynamaqla keçirir. O, skripka musiqi alətində ifa etməyi bacarır. Aylinin ailəsi 3 nəfərdə ibarətdir.

Daim övladlarının yaxşı təhsil alması üçün əlindən gələni edən və hər cür əziyyətə qatlaşan zəhmətkeş atası Babayev Həsən Nizami oğlu 1988-ci ildə Bərdə şəhərində anadan olub. Orta təhsillidir. Hal-hazırda ticarətlə məşğuldur. Aylin bildirib ki, mənim atam ataların ən gözəli, ən yaraşıqlısıdır.

Gözəl, qayğıkeş anası Qarayeva Aygül Vidadi qızı 1990-cı ildə Bərdə şəhərində anadan olub. Aygül xanım ali təhsillidir və hal-hazırda Access Bankda şöbə müdiri kimi fəaliyyət göstərir.

Aylinin mehriban, səmimi və gözəl bir bacısı var ki, Babazadə Fatimə Həsən qızı 17 noyabr 2017-ci ildə Bakı şəhərində anadan olub. Hal-hazırda 2 yaşı var.

“Çağdaş Təhsil” jurnalının heyəti adından Aylin balamıza uğurlar arzulayıb həyatda insanın şəxsiyyət kimi yetişməsi üçün yüksək ali təhsil və sağlam mühit arzulayırıq. Seçdiyi peşə gələcəkdə ona uğurlar, nailiyyətlər qazandırsın.

# Lalə Mikayılova



**“Kitablar özünüzə və başqalarına hörmət etməyi öyrədəcək, ürəyi və ağlı dünya və insanlıq sevgisi ilə dolduracaq”**

***(Maksim Qorki)***

İnsanlar iki kateqoriyaya bölünürlər : kitab oxuyanlar və kitab oxuyana qulaq asanlar. Birincilər hər zaman ikincilərdən daha dünyagörüşlü və dərin ağıllı olur ki, onlar genişdünyagörüşləri və iti zəkaları ilə ikincilərdən seçilir. Əslində bizim özümüzü kim yaxud nə hesab etdiyimizi ancaq oxuduqlarımız müəyyən edir. Amma bir vacib məqamı unutmaq olmaz ki, önəmli olan oxuduğumuz kitabların sayı deyil, anladığımız kitabların sayı önəmlidir. Həqiqətən nə qədər çox kitab mütaliə etməyimiz əsas deyil, oxuduğumuz kitablardan özümüz üçün, həyat üçün, cəmiyyətimiz üçün hansı dəyərli fikirləri, fəlsəfi, həyati anlamları əxz edib, kəşf edə bilməyimizdir.

Dünyada nə baş verdiyini anlamaq üçün biz gərək daha çox kitab oxuyaq, mütaliə edək. Kitab oxumaq heç zaman boşuna sərf edilmiş vaxt ola bilməz. Çünki kitab elm-bilik, hikmət kimi çox dəyərli, qiymətli xəzinəni özündə cəmləyir. Səbəbsiz yerə kitab bilik xəzinəsidir deyilməyib. O, xəzinəni beynimizdə, özümüzdə saxlamaq üçün beşikdən qəbr evinədək oxumaq lazımdır.

Elmin, təhsilin çox dəyərli nemət olduğunu, kitab adlı xəzinənin hikmətini anlayan ağıllı və bacarıqlı şagirdlərimizdən biri olan Lalə Mikayılova jurnalımızın növbəti uğurlu müsahiblərindən biri olmaqla yanaşı digər şagirdlərdən öz prinsipiallığı ilə seçilənlərdəndir. Bu yazı onun məktəbli tərcümeyi halından bəhs etsə də ümid edək ki, gələcək saylarımızda onun parlaq taleyi, uğurlu həyatından geniş bəhs etmək və layiqli mövqeyini işıqlandırmaq qismət olar. Ona parlaq bir gələcək diləyi ilə keçid alaq onun yazısına.

Lalə Mikayılova Samir qızı 2005-ci ilin fevralın 20-də Sabirabadın ən böyük kəndlərindən birində, Ulacalı kəndində anadan olub. Ailənin ortancılı olan Lalə rəsmən ziyalı ailəsində doğulmasa da ancaq çox savadlı və bacarıqlı bir ailənin yetirməsi, övladıdır. Həyatda olduqca ağıllı, sakit və çoxbilmiş qız olan Lalə təhsil həyatına 2011-ciilin tədris ilindən etibarən başlayıb. Həmin ilin sentyabrında Böyükağa Ağayev adına Ulacalı kənd tam orta məktəbin birinci sinfinə qədəm qoyan Lalə hazırda həmin məktəbin 8a sinif şagirdidir. İlk təhsil ilindən etibarən Lalə istedad və bacarığı ilə sinifdə və məktəbdə seçilən nümunəvi şagirdlərdən biri olaraq hər zaman prinsipiallığı ilə istədiyi, qarşısına qoyduğu məqsədlərinə çatıb. Bu məxsusi müsbət xüsusiyyətlərinə görə müəllimlərinin sevimlisi olan Lalə bütün fənn və müəllimlərini ayrı-seçkilik etmədən sevərək oxuyur, hörmət edir. Ancaq içindən gələn doğal istəkdən, həmçinin dəqiq elmlərə olan marağından dolayı onun fizika, riyaziyyat, Azərbaycan dili və rus dili fənlərinə sevgisi bir ayrıcürdür. Ancaq onun təshilində, elmlənməsində əziyyəti olan ilk müəllimdən tutmuş bütün fənn müəllimlərinə sevgi və sayğısı böyükdür. Onun 8 illik təhsil həyatında biliklə yanaşı, yəni əlaçı olmağı ilə bərabər həm də idmanın şahmat, voleybol növləri üzrə bir çox uğur və nailiyyətləri var. Belə ki, O məktəbdə öyrəndiyi şahmat bilikləri ilə 2016-ci ildə Dünya Azərbaycanlıların Həmrəylik gününə həsr olunmuş şahmat birinciliyində 2-ci yeri, 2017-ci ildə isə Azərbaycan Respublikasının yaradılmasının 99-cu ildönümü münasibəti ilə oxuduğu orta məktəbin təşkil etdiyi şahmat yarışında birinci yeri tutduğuna görə “Tərifnamə” ilə təltif edilmişdir. 2018-ci ildə 5 mart Bədən Tərbiyəsi və İdman günü münasibətilə Sabirabad Rayon Gənclər və İdman İdarəsinin rəhbərliyi tərəfindən “Diplom”la, 2019-cu ildə Azərbaycan Respublikasının Gənclər Fondunun 11-ci qrant müsabiqəsinin Sabirabad rayonu üzrə qalib “ İdman ruhun qidasıdır” adlı lahiyəsi çərçivəsində qızlar arasında



# NURUYEV İNTİQAM



**”Bilikli olmaq azdır, gərək bu bilikdən istifadə etməyi də bacarasan”**

***(Mark Till Siseron)***

Uşaqlar bizim gələcəyimizdir və cəmiyyətimizin gələcək vətəndaşlarıdır. Sağlam bir gələcək qurmaq üçün də ilk növbədə sağlam ruha və düşüncəyə malik usaqlar yetirməliyik. Əks halda yalnış ailə modeli, zəif təhsil və mənəvi deqradasiyaya uğramış bir cəmiyyətdə normal şəxsiyyət böyütmək və yetirmək olduqca çətindir. Odur ki, uşaqlar bizim gələcəyimiz olduğundan onların təlim və tərbiyəsi, yüksək təhsili məxsus olduğu cəmiyyəti, ailələri, valideynləri, eləcə də dövləti çox ciddi narahat etməli və düşündürməlidir.

Nuruyev İntiqam Dilavər oğlu 11 aprel 2008-ci ildə Biləsuvar rayon Zəhmətabad kəndində anadan olub. 2015-ci ildə Biləsuvar rayon Ə. Rəhmətov adına tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 4-cü sinif şagirdidir. Məktəbə başladığı ilk günlərdən çalışqanlığı və məsuliyyəti ilə müəllimlərinin sevimlisinə çevrilmişdir. Öz bacarığı və tərbiyəsi ilə yoldaşlarından seçilən İntiqam, hər zaman dərslərinə xüsusi sevgi ilə yanaşmışdır. Keçdiyi hər bir fənnə məsuliyyətlə yanaşır. Onun ən çox sevdiyi fənlər Azərbaycan dili və riyaziyyatdır. Dərslərindən əlavə boş vaxtlarında kitab oxuyub yeni biliklər əldə etməyi xoşlayır. Nuruyev İntiqam gələcəkdə polis olmaq arzusundadır. Ədalətin keşiyində şərəflə durmaq onun ən böyük istəyidir. Ona, bu yolda ailəsi və müəllimləri böyük dəstək vermişlər. İntiqam bütün müəllimlərini sevir və onlara hörmət edir,lakin Bahar müəllim, Vüsalə müəllim, Nərgiz müəllim və Yusif müəllim var ki, onları bir ayrıcür sevir, bir ayrı rəğbət bəsləyir. Valideynləri hər zaman İntiqamın qərarlarına və istəklərinə hörmətlə yanaşmış və əlindən gələn hər şeyin artığını etməyə çalışmışlar. İntiqam da valideynlərinin əziyyətini yerdə qoymamaq üçün var gücü ilə çalışır. O,bilik yarışlarıda hər zaman yüksək nəticələr əldə edir. Həmçini də onun rəsm çəkməyə və şeir oxumağa marağı çoxdur. İntiqamın ailəsi 7 nəfərdən ibarətdir. Atası-Nuruyev Dilavər Ələkbər oğlu, bələdiyyə işçisidir. Anası Əzimova Səbirə Vaqif qızı, evdar xanımdır. Onun İlkanə, Röya, Təhminə adında 3 bacısı, İlkin adında bir qardaşı var.

”Çağdaş Təhsil” jurnalı adından öz növbəmizdə biz də Nuruyev İntiqama gələcəkdə uğurlar arzu edir, Ona müəllimlərinin və valideynlərinin fəxri olmağı diləyirik. Elm yolun açıq, ondan götürdüyün faydan böyük olsun!

# NURUYEVA TƏHMİNƏ



**”Gənc ikən bilik ağacını əkməsək, qocaldığımız zaman kölgəsinə sığınacaq bir yerimiz olmaz”**

***(Nikolo Sebastyan Şamfor)***

Elmlər insan ruhunun gözünü təmizləyir və yenidən açır. Ruhun gözü min dənə adi gözdən önəmlidir, çünki ancaq onun köməyi ilə həqiqəti görmək mümkündür. Bu sözləri böyük filosof, elm adamı Platon deyib. Həqiqətən elm aydınlığa, obyektivlliyə və gerçəkliyə xidmət edir. Yalnız həqiq elmin sayəsində əsl həqiqətə, gerçək faktlara nail olmaq olar.

Çalışqanlığı, məsuliyyəti və zəhməti ilə əvvəlcə müəllimlərinin sevgisini, daha sonra onu əhatə edən insanların hörmətini qazananlardan biri də Təhminə balamızdır.

Nuruyeva Təhminə Dilavər qızı 11 aprel 2008-ci ildə Biləsuvar rayon Zəhmətabad kəndində anadan olub. 2015-ci ildə Biləsuvar rayon Ə. Rəhmətov adına Zəhmətabad kənd tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda isə həmin məktəbin 4-cü sinif şagirdidir. Çox çalışqan və məsuliyyətli biridir Təhminə. Təhminə yaxşı başa düşürdü ki, insanı ucaldan amillərdən biri və birincisi savaddır. Ona görə də, bu yollarda irəliləməyi qarşısına məqsəd qoyur. Ona bu yolda ailəsi və müəllimləri böyük dəstək vermişlər. Valideynləri hər zaman Təhminənin qərarlarına və istəklərinə hörmətlə yanaşmış və əlindən gələn hər şeyin artığını etməyə çalışmışlar. O, bütün fənləri həvəslə oxuduğunu deyir, ən çox da Azərbaycan dili və riyaziyyat fənlərini maraqla oxuyur. Çünki öz ana dilinə və elmlərin şahı olan riyaziyyata çox bağlıdır. Ən çox sevdiyi müəllimləri isə Bahar və Yusif adlı müəllimləridi. Onun üçün müəllimlik müqəddəs sənət olduğu qədər şərəfli və xeyirli bir faydaya malikdir. O, bildirir ki, gələcəkdə hüquqşünas olmaq arzusundadır. Və bu yolda ən birincisi orta məktəbi əla qiymətlərlə bitirib yüksək balla ali məktəbə qəbul olmaq onun ilk məqsədidir. Bir çox uğurları olan Təhminə balamız, həm də bilik yarışlarında yüksək nəticələr əldə etmişdir. Sinif əlaçısı olan və boş vaxtlarını kitab oxumaqla dəyərləndirən Təhminə yeni bilik əldə etməyi çox sevir və mütaliənin ruhun qidası olduğunu düşünən şagirdlərimizdəndir. Onun ailəsi 7 nəfərdən ibarətdir. Atası Nuruyev Dilavər Ələkbər oğlu, bələdiyyə işçisidir. Övladlarını çox sevir və onların parlaq gələcəyi üçün çalışır. Çox istəyir ki, övladları uğurlu bir taleyin, xoş qismətin sahibi olsunlar. Anası Əzimova Səbirə Vaqif qızı, evdar xanımdır. Onun İntiqam, İlkin adında iki qardaşı, Nuruyeva İlkanə və Röya adında iki bacısı var. Onlar 5 uşaq birgə daim bir-birlərinə yardım etməyi və dəstək olmağı bacarırlar.

Biz də öz jurnalımız adından Nuruyeva Təhminəyə həyat yolunda uğurlar arzu edirik. Daima ailənin və müəllimlərinin fəxri olasan. Səsin hər zaman yüksəklərdən gəlsin. Uğurlarınla müəllim və valideynlərinin daim qürur mənbəyi olasan!






AZƏRBAYCAN GƏNCLƏR FONDU

Fəxri Fərman

II Yer

Mikayılova Lalə Samir qızı

Azərbaycan Respublikasının Gənclər Fondunun 11-ci qrant müsabiqəsinin Sabirabad rayonu üzrə qalib **“İdman ruhun qidasıdır”** adlı layihəsi çərçivəsində qızlar arasında keçirilmiş valeybol yarışlarında fərqləndiyinə görə təltif olunur.

Layihə rəhbəri: M.E.Cəfərova

Sabirabad, 28 fevral 2019-cu il

keçirilmiş valeybol yarışlarında ikinci yerə çıxıb fərqləndiyinə görə “Fəxri Fərman” la təltif olunub. Bütün bunlar onun istedadını tam əhatələmir. Lalə Mikayılova xüsusi fitri istedada malik qız olduğundan islam dinini çox sevdiyindən və dininə bağlı olduğundan bu yaşında dinimizin müqəddəs kitabı sayılan “Qurani-Kərim” kitabını sərbəst oxumağı mənimsəyib və bunu çox gözəl şəkildə icra etməyi bacarır. Lalə həmçinin asudə vaxtlarında dərsləri ilə məşğul olmaqla yanaşı musiqi dinləməyi, rəsm çəkməyi də çox sevir. Anası ilə həmsöhbət olarkən məlum oldu ki, bu istedadlı qız heç bir xüsusi məşğələyə, əlavə dərnəyə getmədən qeyri-adi əl qabiliyyətinə malik olduğundan rənagərəng rəsmlər çəkməyi bacarır, maraqlı əl işləri tikərək hazırlayır. Bir sözlə müsahibədən aydın oldu ki, Lalə istədiyi çox məqama öz istedad və bacarığı ilə yüksək səviyyədə nail olan, mübarizcil və məqsədyönümlü bir şagirddir. Onun uşaqlıqdan prinsipillalığı ilə seçilməsi ətrafdakıların, xüsusilə valideynlərin diqqət mərkəzində olub və bu keyfiyyət ona ancaq üstünlük qazandırıb. Onun ailəsi də Lalə ilə qürur duyur, çox sevinirlər ki, belə bir istedadlı və ağıllı qız onların övladlarıdır. Lalənin çox mehriban ailəsi, istiqanlı valideynləri və sevimli bacı və qardaşı var. Onun atası Mikayılov Samir Şamil oğlu 1979-cu il martın 25-də anadan olub, ticarətlə məşğul olaraq ailənin maddi qayğılarını çəkməklə övladlarının xoşbəxt gələcəyi üçün zəhmət çəkir. Anası Mikayılova Samirə Həsən qızı 1979-cu ilin oktyabrın 26-da anadan olub, orta təhsilli evdar xanımdır. Maraqlıdır ki, övladlarına sevgi və qayğı ilə yanaşan Samirə ana özü də orta məktəb illərində istedadlı və bacarıqlı bir şagird olub. Hətta vaxtilə şahmatla aktiv məşğul olub 1-ci dərəcəli şahmatçı olub. Görünür qızına da bu istedad və bacarıq anadan irsən keçib. Lalənin Kimyaxanım adında bacısı, Şamil adında qardaşı var ki, Kimyaxanım 11-ci sinif, Şamil isə 3-cü sinif şagirdidir. Onlar da çox istedadlı və savadlı şagirdlərdir. Hətta Kimyaxanım da voleybol idman növü üzrə bir sıra uğurları olan bir şagirddir.

Biz də “Çağdaş Təhsil “ jurnalı adından Laləyə böyük sənət və həyat uğurları, bol nailiyyətlər arzulayırıq. Qoy öyrəndiyi hər bir elm və bilik onun həyatını nura qərq etsin, hər uğuru, bacarığı ardınca böyük uğurlar, yeniliklər gətirsin. Əldə etdiyi böyük nailiyyətlərlə həmişə ailəsinin, müəllimlərinin sevinci və fəxri olsun!




SABİRABAD RAYONU GƏNCLƏR VƏ İDMAN İDARƏSİ

DİPLOM

Mikayılova Lalə Samir qızı

5 Mart Bədən Tərbiyəsi və İdman günü münasibətilə

TƏLTİF OLUNUR

SABİRABAD RAYON GƏNCLƏR VƏ İDMAN İDARƏSİNİN RƏİSİ:

05.03.2018


TƏRİFNAMƏ

Azərbaycan Respublikasının yaradılmasının 99-cu ildönümü münasibəti ilə B. Ağayev adına Ulacalı kənd tam orta məktəbində keçirilən şahmat birinciliyində I yer tutduğuna görə Mikayılova Lalə təltif olunur.


TƏRİFNAMƏ

Dünya Azərbaycanlılarının Həmrəylik gününə həsr olunmuş şahmat birinciliyində 2-ci yeri tutduğuna görə

Mikayılova Lalə Samir qızı

təltif edilir

direktor: E.Bünyadov

Sabirabad şəhəri 30 dekabr 2016

# Fatimə Ağa





**"Bilmədiyini bilmək elmə atılan ilk addımdır"**
***(Disraelli)***

Elm "fikir mədənlərində" parlayan işıqdır. Ən parlaq fikirlər, ən dərin ifadələr elm sayəsində gün işığına çıxır. Ağıl elmin köməyi ilə həqiqəti dərk edir. Qəlb onunla əbədiyyətə qovuşur. Elmin işığı ilə kainatdakı bütün zülmətlər yox olur. Fikirlərə yeni üfüqlər açan elm insanları müvəffəqiyyətdən- müvəffəqiyyətə aparır. Elm müvəffəqiyyətə aparan yollara işıq saçır. Elmlə cəmiyyət ümidsizlikdən, bədbinlikdən xilas olur, əzm və cəsarətlə yüksək məfkurələrə can atır. Cəmiyyətdəki qarışıqlıq cəhalətdən doğur. Cəhalət elmin işığında qərq olduqca hərc-mərcliyin yerini əmin-amanlıq, kin və nifrətin yerini sevgi tutur. Savadlı insanı savadsızdan fərqləndirən əsas xüsusiyyətlərdən biri də məhz dinləmək qabiliyyətidir. Dinləyə bilən hər birimizin qarşısında çox böyük sərvət, çox böyük imkanlar yaranır. Təhsilli gənclər bu ölkənin ən əsas aparıcı qüvvəsidir. Elə müsahibimiz Fatimə də min bir çətinliklə olsa təhsilə olan sevgisindən dolayı kitab-dəftərinə böyük sevgi, sayğı ilə sarılaraq onu oxuyan və hikmətini anlayanlardandır.

Müsahibimiz Fatimə Ağa Cavanşir qızı 2010-cu il 9 mart tarixində Sabirabad rayonundan anadan olub. Bu ağıllı bala 2016-cı ildən etibarən elm və təhsil yolunda uğurlu addımlar atmağa başlayıb. Həmyaşıdları və digər şagirdlər kimi səhhətindən dolayı məktəbə gedə bilməsə də ancaq ev şəraitində təhsilini almağa başlayıb. Adı kimi özü də gözəl olan zəhmətkeş Fatimənin 9 yaşı var və hər zaman daha yaxşı oxumağa savad və bilik qazanmağa can atır. Ən sevimli müəllimi olan Nisə müəllim ona gündəlik ev şəraitində dərs oxumaqda yaxından köməklik edir. Bu fədakar müəllim Fatimənin çox ağıllı və çalışqan olduğunu deyir və onu öyrətməkdən zövq aldığını bildirir. Bütün fənləri oxumağı sevən Fatimə, rəsm dərsini daha çox sevir. Çünki onun rəsm əsərlərinə xüsusi sevgisi və marağı var. O,digər zəhmətkeş müəllimləri olan Esmira və Xanımzər müəllimlərini də çox sevdiyini bildirdi. Fatimənin ən böyük uğuru elm və bilik yolunda dayanmadan və əzmlə çalışmasıdır. O, bildirib ki, bu yolda ona ailəsi, sevdikləri və müəllimləri daim dəstək olur, onu həvəsləndirir. Bu gözəl bala gələcəkdə ibtidai sinif müəllimi olmaq arsusundadır. Ölkəmizin özünə inanan savadlı gənclərindən olan Fatimə bu xəyalını bir gün mütləq reallaşdıracağına əmindir.

Asudə vaxtlarında zamanını kitab oxumağa və oyun oynamağa ayıran bu gözəl bala daim mütaliə edir ki, oxuduqlarını unutmasın.

Fatimənin ailəsi 5 nəfərdən ibarətdir. Ağayev Cavanşir Xuddam oğlu 1975-ci ilin martın 4-də anadan olub. Qarabağ qazisidir. Anası Hüseynova Əminə İbrahim qızı 1977-ci ildə dekabrın 11-i anadan olub, evdar xanımdır. Fatimə atasının çox zəhmətkeş, anasının isə olduqca qayğıkeş olduğunu bildirdi. O, deyir ki, valideynləri ona daim dərslərində kömək edir. Fatimənin iki qardaşı var. Böyük qardaşı Əlirza 2009-cu ilin 21 yanvar tarixində anadan olub, 4-cü sinif şagirdidir. Kiçik qardaşı Abidin isə 2013-cü ilin avqustun 3-də anadan olub məktəbəqədər hazırlıq kursunda hazırlaşır.

Biz də redaksiya kollektivi olaraq bu ağıllı balaya təhsil və elm yolunda uğur və sevinc dolu günlər arzu edirik. Fatimənin gələcəkdə savadlı bir müəllim olacağına, əzm və zəhməti ilə neçə-neçə balaları savadlandıracağına və ailəsinin başını daim uca edəcəyinə əminik. Çünki biz Fatimənin israrlı istəyini və gücünü hiss edirik. Belə olduğu təqdirdə isə heç bir maneə insana hasar ola bilməz. Ömür yolu açıq, taleyi parlaq olsun!





# NOVRUZOV KAMRAN



**Bir elm öyrənmək istədikdə sən,**
**Çalış ki, hər şeyi kamil biləsən.**
**Kamil bir palançı olsa da insan,**
**Yaxşıdır yarımçıq papaqçılıqdan.**
***(Nizami Gəncəvi)***

Hədəf və məqsədi bəlli olan bir elm - sahibi üçün əbədi davam edəcək bərəkət qaynağı və tükənməz bir xəzinədir. Bu xəzinəyə malik olanlar yaşadıqları müddət ərzində, hətta daha sonraları da bir şirin su qaynağı kimi daim ziyarət edilir və xeyirə vəsilə olurlar. Hər bir insanın qədr və qiyməti öyrəndiyi elmin məzmun və zənginliyi ilə ölçülür. Novruzov Kamran Muxlis oğlu da belə düşünən, aktiv şagirdlərdəndir.

Novruzov Kamran Muxlis oğlu 6 noyabr 2005-ci ildə Özbəkistan Respublikası Kaşkadarya rayonunda anadan olub. 2012-ci ildə Sabirabad rayon Azadkənd kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 7-ci sinif şagirdidir. Məktəbə başladığı ilk gündən müəlimlərinin sevgi və rəğbətini qazanmışdır. Elmə, savada, təhsilə olan marağı Kamranı çox çalışqan və məsuliyyətli bir şagird kimi yetişdirmişdir. O, bütün fənləri həvəslə oxuduğunu deyir. Ən çox sevdiyi fənləri isə Azərbaycan dili, riyaziyyat, coğrafiya, tarix, bədən tərbiyəsi fənləridir. Bütün müəllimlərini sevən və hörmət bəsləyən Kamranın ən sevimli müəllimləri isə Gülnar müəllim, Zeynəb müəllim, Aygün müəllim, Qiyasəddin müəllim və Rüstəm müəllimdir. Kamranın bir çox nailiyyətləri vardır. Belə ki, o məktəbdə keçirilən bayramlarda və tədbirlərdə iştirak edib və nümunəvi, fəal şagird kimi seçilib. Bütün uğur və nailiyyətləri ilə müəllimlərini və valideynlərini sevindirən Kamran qarşısına məqsəd qoymuşdur ki, dərslərini yaxşı oxusun və ali məktəbə daxil olsun. O, deyir ki, hansı peşəyə sahib olursan ol öz işini layiqincə və şərəflə yerinə yetirməlisən. Kamranın arzusu isə memar olmaqdır. O, bir övlad və şagird kimi əldə etdiyi uğurlarına görə ilk öncə öz valideynlərinə daha sonra isə müəllimlərinə borclu olduğunu, onlara minnətdarlıq bildirdiyini deyir. Boş vaxtlarında kitab oxuyan Kamranın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Novruzov Muxlis Sədulla oğludur. O, bir valideyn kimi çalışaraq övladlarının təhsilli və savadlı olması üçün çalışır və onlara parlaq bir gələcək arzulayır. Anası Səfərova Asiya Rza qızı isə övladlarının təlib-tərbiyəsi ilə yanaşı, eləcə də təhsili ilə yaxından məşğul olur. O da bir ana kimi övladlarına layiqli bir həyat arzu edirlər. Novruzov Murad adında bir qardaşı var. O idmanla aktiv məşğul olur.

Biz də "Çağdaş Təhsil" jurnalı adından Kamrana həyat yolunda müvəffəqiyyətlər arzu edir və bol-bol uğurlar diləyirik. Səsin daim yüksəklərdən gəlsin. Addımladığın elm-təhsil yolunda böyük uğur və nailiyyətlər qazanmağı arzu edirik!

# NƏBİZADƏ İLYAS



**"Bilməməkdən qorxma, səhv bilməkdən qorx. Çünki bütün fəlakətlər ona görə baş verir"**

***(Lev Nikolayeviç Tolstoy)***

O adam ki, bilir və biliyi ilə başqalarını heyran edir, o, alimdir, ona ehtiram edin. O adam ki, bilir və biliyinə güvənmir, o, özündən xəbərsizdir, onu tənqid edin. O adam ki, bilmir və öyrənməyə cəhd edir, o, zəhmekeşdir, ona kömək edin. O adam ki, bilmir və öyrənmək də istəmir, o ağılsızdır, ondan uzaq olun. Elmə, biliyə olan marağından, öyrənməyi və öyrətməyi sevən şagirdlərimizdən biri də İlyasdır.

Nəbizadə İlyas Bilal oğlu 19 aprel 2005-ci ildə Laçın rayonunda anadan olub. 2011-ci ildə Laçın rayon 15 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Hal -hazırda həmin məktəbin 8-ci sinif şagirdidir. İlyas bacarığı, tərbiyəsi və məsuliyyəti ilə müəllimlərinin sevimli şagirdlərindən biridir. O, yaxşı anlayır ki, həyatda hər şeyin başında elm, savad durur. Buna görə İlyas çalışır ki, elmli, savadlı, təhsilli biri kimi yetişsin. Bu yolda ona kömək edənlərdən biri də müəllimləridir. İlyas bütün müəllimlərini sevdiyini deyir. O bütün fənləri həvəslə və maraqla oxuyur, lakin ən çox sevdiyi fənni riyaziyyat fənnidir. Onun bir çox uğur və nailiyyətləri var, belə ki, o olimpiadalarda iştirak etmiş və həm respublika üzrə həm də, Bakı üzrə keçirilən yarışlarda çempion olmuşdur, bir çox fəxri fərmanlar almışdır. Bundan əlavə sinifin əlaçı və nümunəvi şagirdi olan İlyas müəllimlərinin fəxridir. Onun arzusu gələcəkdə polis olmaq və vətəninə, millətinə şərəflə və layiqincə xidmət edib ədalət tərəfdarı olmaqdır. Boş vaxtlarında da idmanla məşğul olan İlyasın ailəsi 6 nəfərdən ibarətdir.

Atası Nəbiyev Bilal 1961-ci ildə anadan olub,polis əməkdaşıdır.

Anası Qəribova Gültəkin 1971-ci ildə anadan olub, tibb bacısıdır.

Qardaşıları Nəbiyev Orxan Bilal oğlu 20 may 1990-cı ildə anadan olub, Nəbiyev Ayxan 26 may 1992-ci ildə anadan olub,Nəbiyev Sərxan 31 dekabr 1996-cı ildə anadan olub və hər üçü də ali təhsillidir. İlyasın da məqsədi oxuyub qardaşları kimi savadlı biri olmaqdır.

Biz də öz jurnalımız adından İlyasa uğur və nailiyyətlərinin daha da bol olmasını arzu edirik. Daima ailənin və müəllimlərinin fəxri olasan. Yolun açıq, taleyin uğurlu olsun!



# AĞA ƏLİRZA









**"Bağlı bir qapıya açar axtarsan**
**Ancaq alimlərdə axtar, taparsan"**

***(Nizami Gəncəvi)***

Yaxşı bilirik ki, kainatı Allah idarə edir.Dünyanı isə onun xüsusi istedad bəxş etdiyi insanlar.Tarix bizə göstərir ki, belə insanlar Allahın yer üzərinə bir töhfəsidir. Bu töhfələr hesabına elm və texnika inkişaf edir, insanlar dünən ağıla gəlməyən şeyləri bu gün reallığa çevirə bilərlər. İstedadlı şagirdlərin düzgün istiqamətləndirilməsi, tanıdılması məqsədi ilə ölkə mətbuatında bir sıra yazılar dərc edilib. Məhz bizim jurnal olan "Çağdaş Təhsilin "də əsas məqsədi belə istedadlı uşaqları axtarıb tapmaq, onların fərdi keyfiyyətlərini, istedadlı tərəflərini, xüsusi bacarıq və qabiliyyətlərini ölkəmizə tanıtmaqdır. Həyatda elə insanlar doğulur ki, yuxarıda qeyd edilən müsbət keyfiyyətləri ilə bir ömür özləri ilə yanaşı, məxsus olduğu cəmiyyətə şöhrət və ehtiram gətirirlər. Elə Şəhriyar kənd tam orta məktəbində olarkən həmsöhbətimiz olan məktəbin direktoru eləcə də müəllimlərinin qürurla adlarını çəkdikləri şagirdlərdən biri Ağa Əlirza Cavanşir oğludur. Ona görə də jurnal qəhrəmanı olaraq növbəti yazımızda tanıdacağımız istedadlı məktəbli Əlirzadır.

Ağa Əlirza Cavanşir oğlu 21 yanvar 2009-cu ildə Sabirabad rayonunun Qaragünə kəndində anadan olub.Təhsil həyatına 2016-cı ildə Məlik Məlikov adına Şəhriyar kənd tam orta məktəbinə daxil olmaqla başlamışdır. Hazırda həmin məktəbin 4"a" sinifində oxuyaraq uğurla öz təhsilini davam etdirir. Azyaşlı olmasına baxmayaraq indidən məktəb rəhbərliyinin, müəllimlərinin fəxri şagirdinə çevrilən Əlirza həm təlim-tərbiyəsinə, həm də çalışqanlığına görə sinfin sayılıb seçilən uşaqlarındandır. Əlirzanın sinif müəllimi olan Xanımzər müəllim şagirdlərinin yaxşı oxuması və vətənə layiqli övlad olmaları üçün əlindən gələni edir. Xanımzər müəllimin Əlirzanın qəlbində xüsusi yeri vardır. İlk müəllimin nə adı, nə də haqqı heç vaxt unudulmur. Müəllim yeganə şəxsiyyətdir ki, cəmiyyət özünün gələcəyini, uşaqların tərbiyəsini yalnız ona etibar edir. Öz ziyası ,nuru ilə təkcə şagirdlərinin yoluna deyil, eyni zamanda cəmiyyətə işıq saçır, cəmiyyəti nurlandırır, maarifləndirir.Dərslərinə hər zaman məsuliyyətlə və ciddi yanaşan Əlirzanın ən sevimli fənləri Azərbaycan dili, ingilis dili və informatikadır. Dil öyrənməyə böyük marağı olan Əlirza gələcəkdə ingilis dilindən biliklərini daha da artırmaq və bu dildə sərbəst danışmaq istəyindədir. Asudə vaxtlarını səmərəli keçirən Əlirza fiziki yorğunluğunu aradan qaldırmaq üçün idmanla məşğul olur, şəkil çəkir və müxtəlif fiqurlar düzəldir. Əlirza ilə apardığımız kiçik müsahibədən aydın oldu ki, onun idealı məhkəmədə işləyən vəkillərdir. Arzusuna gəldikdə isə o kosmonavt olmaq istəyir. Ömrünü kainatın digər planetlərində keçirmək və onları araşdırmaq işinə sərf etmək niyyətindədir. Bu peşə onun böyük arzusudur. Kosmonavt olmaq üçün ilk növbədə sağlam, ikinci növbədə isə bilikli olmaq lazımdır. Saysız-hesabsız cihazların, radiostansiyaların və mühərriklərin işini bilməlisən.Əlirzaya həm maddi, həm də mənəvi cəhətdən dəstək olan ailəsi onunla hər zaman fəxr edir və onun gələcəyini parlaq görmək istəyirlər.Əlirzanın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Ağayev Cavanşir Xuddam oğlu 4 mart 1975-ci ildə Sabirabad rayonunun Şəhriyar kəndində anadan olub.Qarabağ qazisidir. Qarabağda olan döyüşlərdə iştirak edərək, torpaqlarımızın müdafiəsi üzrə erməni işğalçılarına qarşı qəhrəmancasına vuruşmuşdur. Onun vətən sevgisi və qayğısı övladlarına da keçib. Hazırda fərdi təsərrüfatla məşğul olub halal qazancı ilə ailəsini dolandırır, ailəsinin maddi dolanışığını təmin edir.

Anası Hüseynova Əminə İbrahim qızı 11 dekabr 1977-ci ildə Sabirabad rayonunun Şəhriyar kəndində anadan olub. Hazırda evdar xanımdır. Bir ana kimi övladlarının təhsili, tərbiyəsi ilə həmişə ciddi maraqlanır və məşğul olur.

Əlirzanın bir bacısı və bir qardaşı var : Ağa Fatimə Cavanşir qızı 9 mart 2010-cu ildə Sabirabad rayonunun Qaragünə kəndində anadan olub. Hazırda M.Məlikov adına Şəhriyar kənd tam orta məktəbinin 3"b" sinifində oxuyur. O, bacısını çox sevir və daim onun qayğısına qalır.

Ağa Abidin Cavanşir oğlu 2014-cü ildə anadan olub. 5 yaşı var. Məktəbəqədər hazırlığa gedir. Abidin daim qardaşından və bacısından dərslərini yaxşı oxumağı öyrənir və onlara oxşamağa çalışır.

"Çağdaş Təhsil" jurnalı heyəti adından Əlirza balamıza uğurlar arzulayırıq. Təsil həyatı ona saysız-hesabsız nailiyyətlər qazandırsın, uğurları ilə də cəmiyyətinə, ölkəsinə faydası böyük olsun!



# YƏHYALI MƏHƏMMƏD







**İnsana arxadır onun kamalı,**
**Ağıldır hər kəsin dövləti malı**
***(Nizami Gəncəvi)***

Yazını Nizami Gəncəvinin önəmli sitatı ilə başlayıb Məmməd Səid Ordubadinin müdrik kəlamı ilə aydınlıq gətirmək istəyirəm "İnsan qılıncının kəskinliyi ilə qəhrəman ola bilməz, ağlın kəskin olması lazımdır." Həqiqətən də bu kəlamda bir həqiqət vardır. Çünki ağlın kəskin olması uğura, məqsədə gedən yoldur. Uğur insana çox şey öyrədir. Dahi yazıçı Lev Tolstoy isə bildirmişdir ki:

"Uğurun aslı olduğu yeganə şərt səbrdir"

Ağıllı insanlar hər zaman duruşu, baxışı, danışığı ilə fərqlənir. Onların düşüncələri daha praqmatiqdir. Üstün zəkalı insanlar son dərəcədə inadçı quruluşlu, lider ruhlu insanlardır. Ağıllı insanlar hər zaman işlərinə intizamla yanaşırlar. Çox böyük fiziki enerjiyə sahib olmaqla gördükləri işi böyük bir ciddiliklə edirlər. Ağıllı insanlarda vətənə, ailəyə,dostlara,etdiyi işlərə sevgi yüksək olur. Sevgi olduğu zaman isə neqativ hadisələrdə müsbət nələrisə görə bilirik. Bu hansısa işi həvəslə həyata keçirməklə bağlıdır. Müasir dövrdə insanı uğurlu edən əsas parametrlərdən biri onun tanınmasıdır. Uğur nəticədir, hədəfdir. Bu yazını uğura doğru elmi-biliyi ilə addımlayan Yəhyalı Məhəmməd Seymur oğluna həsr edirik.

Yəhyalı Məhəmməd Seymur oğlu 14 yanvar 2010-cu ildə Bərdə rayonunun Mehdili kəndində anadan olub. 2016-cı il Bərdə rayon Mehdili kənd tam orta məktəbinə daxil olub və hal-hazırda həmin məktəbdə 3-cü sinifdə oxuyaraq öz təhsilini uğurla davam etdirir. Çalışqan və nümunəvi şagirdimizin sevimli fənləri və sevimli müəllimləri: Azərbaycan dili və riyaziyyat fənni və onları tədris edən Yahyayeva Ulduzə müəllim, həyat bilgisi fənni və onu tədris edən Hacıyeva Roza və texnologiya fənni və onu tədris edən Qasımova Sahirə müəllimdir. Məktəbin fəxri şagirdi, dərs əlaçısı olan Məhəmməd hətta asudə vaxtlarını da dərs oxumaqla keçirir, elmdən-kitabdan ayrı düşmür. Məhəmməd artıq öz gələcək peşəsini də indidən seçib. Onun arzusu gələcəkdə Polis Akademiyası üzrə ali təhsil alıb polis olmaqla ölkəsinə, millətinə sədaqətlə xidmət etməkdir.

Məhəmmədin ailəsi 3 nəfərdən ibarətdir.

Atası Yəhyayev Seymur Qılınc oğlu 2 oktyabr 1977-ci ildə Bərdə rayonunun Mehdili kəndində anadan olub. Orta təhsillidir. Kənd təsərrüfatı ilə məşğul olur.

Anası Yəhyayeva Tahirə Nadir qızı 7 fevral 1987-ci ildə Bərdə rayonunun Mehdili kəndində anadan olub. Orta təhsillidir. Hal-hazırda evdar xanımdır.

Qardaşı Yəhyalı Təhmasib Seymur oğlu 6 fevral 2009-cu ildə Bərdə rayonunun Mehdili kəndində anadan olub. Hal-hazırda 3-cü sinifdə oxuyur.

Biz də Məhəmməd balamıza gələcək həyatında uğurlarının saysız hesabsız olmasını arzu edirik, qoy ali təhsil alaraq dövlət polisi olmaqla daim dövlətinin, millətinin qulluğunda şərəf və ləyaqətlə dursun.



# ALLAHVERDİYEVA EMİLİYA





**Biz hamımız həyatımızda əldə etdiyimiz nailiyyətlərə, bütün varlığımıza görə müəllimə borcluyuq. Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edəbilməz. Kitab sahilsiz dəniz,biliklər ümmandır.**
**(Aybek)**

O adam məharətlidir ki, çox əziyyət çəkmədən elmə yiyələnir. Çox şeyi başqalarından öyrənir, hamının müdrikliyindən və qabiliyyətindən bəhrələnir. Yaşayaraq əldə edilən bilik daş üzərinə həkk edilmiş yazıdır. Biz elmi-texniki tərəqqi əsrində yaşayırıq. Bu əsr elə bir əsrdir ki, bu zamanda cəmiyyətin inkişaf templəri, onun iqtisadi inkişafı birbaşa olaraq bilik və elmdən asılıdır. Və beləliklə, oxumağı sevən istedadlı balalarımızdan biri olan Allahverdiyeva Emiliya haqqında növbəti yazımızda bəhs edirik.

Allahverdiyeva Emiliya Ehtiram qızı 8 oktyabr 2012-ci ildə Sabirabad rayonu Azadkənd kəndində anadan olub. 2018-ci ildə Sabirabad rayonu İbrahim Məmmədov adına Azadkənd kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda 1-ci sinifdə öz təhsilini davam etdirən Emiliya çox çalışqan və məsuliyyətli bir şagirddir. Məktəbə başladığı ilk günlərdən müəllimlərini sevgisini və rəğbətini qazanmışdır. Emiliya deyir ki, ona elm, savad verən bütün müəllimlərini sevir. Onun ən çox sevdiyi fənlər "oxu" və Azərbaycan dili fənləridir. Emiliya yaşının az olmasına baxmayaraq düşüncəsi geniş və ağıllı qızdır. O, yaxşı bilir ki, savad qazanmasa gələcək həyatında özünə istədiyi yeri, mövqeyi tuta bilməyəcək. İnsanın dünyagörüşü nə qədər geniş olsa bir o qədər əmin addımlarla irəliləyə bilir. Çünki, atdığı addımın sonrasın əvvəlcədən görə bilir. Emiliyanın bu yolda ən böyük dəstəkçiləri müəllimləri və kitabları ilə yanaşı, həm də valideynləri ona əllərindən gələn hər bir köməkliyi göstərir və hər daim onun arxasında durur, uğurlarına sevinirlər. Emiliyanın arzusu gələcəkdə həkim olmaq və xalqına layiqincə xidmət göstərməkdir. Balaca müsahibimiz deyir ki, bütün xəstələrə şəfa vermək onun qəlbən istədiyi arzusudur. Onun ailəsi 4 nəfərdən ibarətdir.

Atası Allahverdiyev Ehtiram Aftandil oğlu 2 yanvar 1989-cu ildə Səlyan rayon Qaraçala kəndində anadan olub, hazırda Şirvan şəhər istehsalat Kristal MMC-də işləyir.

Anası Allahverdiyeva Səbirə 11 aprel 1992-ci ildə Sabirabad rayon Cagirgan kəndində anadan olub, hazırda Sabirabad rayon İbrahim Mirzəyev adına Azadkənd kənd tam orta məktəbində ibtidai sinif müəllimi vəzifəsində çalışır.

Bacısı Allahverdiyeva Leyla Ehtiram qızı 13 iyun 2017-ci ildə Sabirabad rayon Azadkənd kəndində anadan olub. Onun iki yaşı var.

Biz də öz jurnalımız adından Emiliyaya həyat yolunda uğurlar arzu edir və nailiyyətlərinin bol olmasını diləyirik. Uğuları və qazancları bol olsun!

# KƏRİMOV ƏLİ



**"Gələcəkdə peşman olmaq istəmirsən-sə, öz ailəni təhsildən məhrum etmə!"**
***(Aleksandr Sergeyeviç Puşkin)***

"Təhsil millətin gələcəyidir" deyən Heydər Əliyev Azərbaycanda təhsil sahəsinə həmişə diqqət yetirmiş və ona qayğı göstərmişdir. O, bildirmişdir ki, təhsil nə sənaye, nə kənd təsər-rüfatı, nə də ticarətdir. İnsanı daim irəli aparan onun savadıdır. Savadsız insan, çıraqsız ev kimidir. Bilik bir gücdür, elm öyrənmək böyük bir zəhmətdir. Bu gücü özündə tapmaq üçün zəhmətə qatlaşan və bu yolda irəliləməyi özünə məqsəd bilən şagirdlərimizdən biri də Kərimov Əlidir.

Kərimov Əli Rəşad oğlu 26 iyun 2007-ci ildə Biləsuvar rayon Dərvişli kəndində anadan olmuşdur. 2013-cü ildə Biləsuvar rayon Nemət Sultanov adına Dərvişli kənd tam orta məktə-bin 1-ci sinfinə daxil olan Əli, hal - hazırda həmin məktəbin 6-cı sinfində təhsil alır. Məktəbə başladığı ilk günlərdən müəllimlərinin və yoldaşlarının sevgisini və rəğbətini qazanan Əli ona tədris olunan bütün fənləri sevir,lakin, aralarında müəyyən fənlər və o fənləri ona təd-ris edən müəllimlər var ki, onları xüsusi maraq-la oxuyur və müəllimlərini xüsusi sevgiylə sevir. Bunlar riyaziyyat fənni və onu tədris edən Nazim müəllim, coğrafiya və onu tədris edən Şamil müəllim, biologiya fənni və onu tədris edən Əlixan müəllim, fizika fənni və onu tədris edən Niyazi müəllim, ingilis dili fənni və onu tədris edən Nürəddin müəllimdir. Əlinin arzusu gələcəkdə Polis Akademiyasını bitirib polis olmaq və xalqına, millətinə şərəflə və layiqincə xidmət göstərməkdir. Onun məqsədi daha da yüksək nailiyyətlər əldə etmək, dərslərini yaxşı oxumaq və ali məktəbə qəbul olmaqdır. Onun uğur və nailiyyətləri ilə ailəsi daim fəxr edir və arzu edirlər ki, Əlinin səsi daim yüksəklərdən gəlsin, ailəsinin, müəllimlərinin fəxri olsun. Boş vaxtlarını dərs oxumaq və idmanla məşğul olmaqla dəyərləndirən Əlinin ailəsi 5 nəfərdən ibarətdir.

Atası Həsənov Rəşad Ağahüseyn oğlu 1981-ci ildə Biləsuvar rayonu Dərvişli kəndində anadan olub, təsərrüfat işçisidir.

Anası Kərimova Ramilə Şahbaz qızı 1984-cü ildə Biləsuvar rayonu Dərvişli kəndində ana-dan olub, evdar xanımdır. 1 bacısı və bir qar-daşı var. Qardaşı 2-ci sinif şagirdidir,bacısı isə 4-cü sinif şagirdidir.

Biz də öz jurnalımız adından Əliyə uğurları-nın bol olmasını diləyirik. Vətəninə, millətinə layiqli övlad olsun və səsi daima ucalardan eşi-dilsin. Yolun açıq olsun.



# YƏHYALI TƏHMASİB







**"Təhsil hər bir dövlətin ölkənin cəmiyyətin həyatı-nın fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təh-silsiz inkişaf edə bilməz"**
**(Ulu öndər Heydər Əliyev)**

Yüksək təhsil səviyyəsinə malik peşəkar kadrlar ölkənin intellektual potensialının əsasıdır. Müasir dövrdə ölkələrin uğurlu və davamlı iqtisad yüksəlişi insan kapitalının məq-sədyönlü inkişafı hesabına əldə edilmişdir. Bütün bunlar təh-silin dövlət səviyyəsində prioritetliyini getdikcə artırmaqda-dır.

Müasir dövrdə təhsilin iqtisadi həyatda rolu əhəmiyyətli dərəcədə artmaqdadır. Hazırda təhsil iqtisa-diyyatda tələb olunan bilik və bacarıqların aşılanması ilə bərabər vətəndaşın gələcək həyata və cəmiyyətə inteqrasiyasına hərtə-rəfli hazırlığı kimi vəzifələri yerinə yetirməli-dir. İnsan ömrü boyu təhsil almaq təlabatının ödənilməsi isə təhsilin iqtisadi həyatda rolu-nu yüksəldən amillərdən ən mühümidir. Ey-ni zamanda sürətli texnoloji tərəqqi bilik və bacarıqların müntəzəm yenilənməsini tələb edir. Bu isə öz növbəsində yeni və daha mü-nasib ixtisasa yiyələnməyə və səriştənin in-kişafına təlabatı artırır. Elmə, münasib ixti-sasa yiyələnmək istəyən şagirdlərimiz say-sız hesabsızdır. Belə bir qəhrəmanlarımız-dan biri də Yəhyalı Təhmasib Seymur oğlu-dur.



Yəhyalı Təhmasib Seymur oğlu 6 fevral 2009-cu ildə Bərdə rayonunun Mehdili kən-dində anadan olmuşdur. 2016-cı ildə Mehdili kənd tam orta məktəbinə daxil olub və hal - hazırda həmin məktəbin 3-cü sinifində oxu-yur. Sevimli fənninin riyaziyyat olduğunu bil-dirən Təhmasib bildirib ki, riyaziyyatı öyrənə bilməyən adam digər fənləri də öyrənə bil-məz, çünki riyaziyyat bütün elmlərin başında dayanır. Sevimli müəllimi olan Ulduzə müəllim Təhmasib üçün dəyərli əvəzolunmaz insandır. İlk dəfə ona parta arxa-sında oturmağı, qələm tutmağı öyrədən Ulduzə müəllim olub. Ulduzə müəllim Təhmasibin çox çalışqan, nümunəvi şagird olduğunu bildirib. Təhmasib balamız dərslərindən al-dığı ən yüksək qiymətlərin onun ən böyük uğuru olduğunu bildirib. Əlaçı balamız artıq öz peşəsini də indidən seçib və bildirib ki, arzum ən yüksək bal toplayıb Tibb Universitetinin tələbəsi olmaqdır. Təhsil alacağım 4 il müddətində həm dərslərdə, həm də praktikalarda yaxından iştirak edərək pe-şəkar həkim kimi fəaliyyət göstərməkdir. Həkimlik sənətinin onun üçün ən ali peşə olduğunu bildirib, çünki insanların hə-yatı və sağlamlıqları onların şəfalı əlindədir. Pe-şəkar həkimlər hər zaman fövqalədə hallara ha-zır olmalıdır. Təhmasibin ailəsi 3 nəfərdən iba-rətdir.

Atası Yəhyayev Seymur Qılınc oğlu 2 okt-yabr 1977-ci ildə Bərdə rayonunun Mehdili kən-dində anadan olub. Orta təhsillidir. Kənd təsər-rüfatı ilə məşğul olur. Hər bir ata kimi o da istə-yir ki, onun edə bilmədiklərini oğlu həyata keçir-sin. Yolunu uğurla və şərəflə davam etdirsin.

Anası Yəhyayeva Tahirə Nadir qızı 7 fevral 1987-ci ildə Bərdə rayonunun Mehdili kəndində anadan olub. Orta təhsillidir. Hal-hazırda evdar xanımdır. Ana sevgisi bağ kimidir ilin hər fəslin-də günəş kimi işıldayır. O da bir günəş tək öv-ladlarına bağlı və onlara qarşı isti, mülayimdir.

Qardaşı Yəhyalı Məhəmməd Seymur oğlu 14 yanvar 2010-cu ildə Bərdə rayonunun Meh-dili kəndində anadan olub. Hal-hazırda 3-cü si-nifdə oxuyur.

Yaxşı valideynin verdiyi tərbiyəni heç bir məktəb verə bilməz, çünki ata-ananın mehriban münasibəti övlad üçün ən yaxşı tərbiyədir. Biz də öz jurnal heyətimiz adından Təhmasibə uğur-lar arzulayırıq ümid edirik ki, valideynlərinin və müəllimlərinin başını hər zaman uca tutacaq.

# YUSİFOV AKİF





**"Elm təbiət kitabını oxuyur və öyrəndiklərini təbiətin öz üzərində sınaqdan keçirir"**

**(Əbu Turxan)**

Elm məbədi mürəkkəb quruluşa malikdir. Buraya gələn adamlar da onları bura gətirən mənəvi qüvvələr də müxtəlifdir. Elm ictimai inkişafın nəticəsi olmaqla yarandığı gündən insanın fəaliyyəti ilə qırılmaz sürətdə bağlı olub insanın fəaliyyəti altında təsir göstərərək insanın dünya görüşünün yaranıb inkişaf etməsinə hərtərəfli şərait yaratmışdır. Elm sözü biliksizliyə aid olan biliyi ifadə edir. Biliksizlik sözü isə məlum olduğu kimi bu və ya digər hadisə proses və şeylər haqqında məlumatsızlıq deməkdir. Elmin köməyi ilə nəinki tarixin nəticələri qiymətləndirilir cari hadisələr təhlil edilir və eyni zamanda gələcək proqnozlaşdırılır.

Elm bəşəri və milli hadisədir. Elmin insan həyatının çiçəklənməsində müstəsna rolu vardır. Elmi nailiyyətlər nəticəsində bəşər həyatı daha da gözəlləşməyə başlayıb və özünün sivilizasiya nöqtəsinə çatmışdır. Öyrəndiyin elmi digərlərinə öyrətmək böyük xeyirxahlıqdır çünki bundan faydalananlar sənə təşəkkür edərlər. Elmin artdıqca ağlında parlayar və hikmətli olarsan.

Növbəti yazımızın qəhrəmanı uğurlu və nümunəvi qəhrəmanlarından biri olan Yusifov Akif Vüsal oğludur.

Yusifov Akif Vüsal oğlu 5 oktyabr 2008-ci ildə Bərdə rayonunun Gərənə kəndində anadan olub. Bərdə rayon H. Zeynalov adına Gərənə kənd tam orta məktəbinə daxil olub. Hal-hazırda həmin məktəbin 4b sinifində təhsilini davam etdirir. Çalışqan və ağıllı şagirdimiz məktəbə ilk qədəm qoyduğundan daim təlim-tərbiyəsi və dərslərinə məsuliyyətli yanaşmağı ilə müəllimlərinin diqqətini cəlb etmişdir. Akif sevimli fənləri olaraq Azərbaycan dili, riyaziyyat sevimli müəllimi olaraq Dürdanə müəlliminin adını vurğulayır. O, Dürdanə müəlliminin çox qayğıkeş və öz şagirdlərini sevdiyini və onlara dəyər verdiyini bildirib. Akif balamız boş vaxtlarında maraqlı kitablar oxuduğunu, futbola baxdığını, oynadığını bildirib. Akiflə apardığımız maraqlı müsahibədən aydın oldu ki, onun ən böyük arzusu orta məktəbi uğurla bitirib, Polis Akademiyasına daxil olmaq və bu sahədə peşəkar səviyyədə ixtisaslaşaraq asayişin keşiyində dursun, insanların hüquqlarını qoruyan vicdanlı polis olsun. O, bildirib ki,öz arzuma çatacağıma heç bir şübhəm yoxdur.

Akifin ailəsi 4 nəfərdən ibarətdir.

Atası Yusifov Vüsal Akif oğlu 9 iyul 1980-ci ildə Bərdə rayonunun Gərənə kəndində anadan olub. Orta təhsillidir.

Anası Yusifova Gülnar Tərlan qızı 1990-cı il fevral ayında Bərdə rayonunun Gərənə kəndində anadan olub. Hal-hazırda evdar xanımdır.

Bacısı Yusifova Nigar Vüsal qızı 13 oktyabr 2009-cu ildə Bərdə rayonunun Gərənə kəndində anadan olub. Hal-hazırda 4-cü sinifdə oxuyur.

Qardaşı Yusifov Məhəmməd Vüsal oğlu 7 aprel 2012-ci ildə anadan olub. Hal-hazırda 1-ci sinifdə oxuyur.

Redaksiyamız adından Akif balamıza uğurlar, sonsuz müvəffəqqiyyətlər arzulayırıq. Qoy ömür yolu uğurlarla, xoş günlərlə zəngin olsun!. Hər bir zaman elinin qürür duyduğu oğul olsun!



# MAHMUDOV COŞQUN







**"Ən yaxşı kitab sənin qəlbini vərəqləyən kitabdır"**

***(Əbu Turxan)***

Bilikdən güclü bir qüvə yoxdur, biliklə silah olan insan məğlubedilməzdir.

Dahi şairimiz N. Gəncəvi alimin rütbəsinin ən uca rütbə olduğunu belə ifadə etmişdir.

**Qüvvət elmdədir, başqa cür heç kəs**
**Heç kəsə üstünlük eyləyə bilməz!**
**Hər uca rütbədən biliniz fəqət,**
**Alimin rütbəsi ucadır əlbət!**

Mahmudov Coşqun Azər oğlu 26 sentyabr 2007-ci ildə Biləsuvar rayonu Aşağı Cürəli kəndində anadan olmuşdur. 2014-cü ildə Biləsuvar rayon Oktay Babayev adına Aşağı Cürəli kənd tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 5-ci sinif şagirdidir. Coşqun məktəbə başladığı ilk gündən çalışqanlığı və dərslərinə qarşı olan həvəsi ilə öz müəllimlərinin sevimlisinə çevrilməyi bacarmışdır. O hər zaman bütün dərslərinə məsuliyyətlə yanaşan və keçdiyi fənlərin hamısından yaxşı qiymətlər alan bir şagird olmuşdur. Bir çox uğur və nailiyyətləri olan Coşqun müəllimlərinin rəğbətini qazanmışdır. Elə, məktəbdə oxuduğu vaxtlardan müəllimlərinə olan sevgisi dərslərə, öyrənməyə, öyrətməyə olan marağı onu savad, elm, təhsil ardınca getməyə yönəltmişdir. Onun ən sevdiyi fənlər Azərbaycan dili, riyaziyyat,təsviri incəsənət, Azərbaycan tarixi və həyat bilgisi,ən sevimli müəllimləri isə Şəbnəm müəllim və Bayram müəllimdir. O, məktəbdə oxuduğu müddətdən daim ali məktəbə qəbul olmaq və öz arzuladığı peşəni qazanmaq arzusunda olub. Coşqunun arzusu gələcəkdə hüquqşünas olmaqdır. Ailəsinin başını hər zaman uca edən Coşqunun istəyi bunu daimi etməkdir. Yaxşı əl qabiliyyəti olan Coşqunun təsviri-incəsənət sahəsində bir çox nailiyyətləri var. Boş vaxtlarında dərslərini oxuyur,futbol oynayır, əl işləri düzəldir və rəsm çəkir. 3 nəfərlik bir ailənin üzvü olan Coşqun ailəsini çox sevdiyini deyir və onların əziyyətlərini elə kiçik yaşlarından yerdə qoymadığına görə sevinir.

Atası Mahmudov Azər Məmməd oğlu,fərdi təsərrüfatçıdır. Anası Mehdiyeva Tünzalə Gülağa qızı,tibb bacısı kimi fəaliyyət göstərir.

Biz də öz jurnalımız adından Coşquna uğurlar arzu edir və nailiyyətlərinin daha da artmasını diləyirik. Daim səsin yüksəklərdən gəlsin, uğurları ilə hamının sevimlisi olsun!

# HƏŞİMOVA SOLMAZ





**"Kitab bir nəslin digər nəslə mənəvi vəsiyyətidir"**

**(A. İ. Gertsen)**

Savadlı, təhsilli insanla ünsiyyət qurarkən heç yorulmursan. Əksinə onun söhbətindən bir rahatlıq, sakitlik duyursan. Müsahibindən bəzən heç oxumadığın, eşitmədiyin tarixi faktlar, gözəl kəlamlar eşidirsən. Bunlar insan ruhunu qidalandırır, rahatladır. Bilik insanı güclü edir. Çünki bilikli insan həm də ziyalı olur. Ona görə ki, belə insanlar yaşadığı cəmiyyətin bütün keyfiyyətlərini, mənsub olduğu millətin zəngin mənəvi dəyərlərini, tarixi şəxsiyyətlərini tanıyır, dilini, dinini təbliğ edir. Bu cür insanlar eyni zamanda yaşadığı müasir cəmiyyətin nail olduğu texnologiyanın, müasir avadanlıqların və onlarla davranış mədəniyyətinə də sahiblənirlər. Bunu bilibdə təhsilinin önəmini hələ kiçik yaşlarından dərk edib öyrənməyə çalışan şagirdlərdən biri də Solmaz Həşimovadır.

Həşimova Solmaz Elxan qızı 7 avqust 2003-cü ildə Sabirabad rayon Azadkənd kəndində anadan olmuşdur. 2009-cu ildə Sabirabad rayon İbrahim Məmmədov adına Azadkənd kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 10-cu sinif şagirdi olan Solmaz məktəbə başladığı ilk günlərdən çalışqanlığı və məsuliyyəti ilə müəllimlərinin sevimlisinə çevrilmişdir. Öz bacarığı və tərbiyəsi ilə yoldaşlarından seçilən Solmaz hər zaman dərslərinə xüsusi sevgi ilə yanaşmışdır. Bütün müəllimlərini sevməsinə rəğmən, ən sevdiyi müəllimləri Səmədova Ellada müəllim və Şahmuradova Zərbəyim müəllimdir. Ümumilikdə Solmaz üzərində əziyyəti olan bütün müəllimlərinin hər birinə ayrılıqda öz təşəkkürünü bildirir. Ən sevdiyi fənni isə riyaziyyat fənnidir. Məktəb vaxtından təhsilə, elmə, savada olan marağı onu ali məktəbə qəbul olmağı qarşısına məqsəd qoymağa sövq etmişdir. O, yaxşı başa düşür ki, insanı ucaldan amillərdən biri və birincisi savaddır. Ona görə də, bu yolda irəliləməyi qarşısına məqsəd qoyur. Onun bu yolda ən böyük dəstəkçiləri ailəsi və müəllimləridir. Ailəsi hər zaman Solmazın qərarlarına, istəklərinə hörmətlə yanaşır və əllərindən gələn hər şeyin artığını etməyə çalışırlar. Onun arzusu gələcəkdə riyaziyyat müəllimi olmaqdır. Bu arzusu və istəyi istə məktəbdəki müəllimlərindən, onların öz işlərinə göstərdikləri məsuliyyətdən irəli gəlir. Bir çox uğurları olan Solmaz, həmçinin də divar qazetlərindəki birinciliyi, məktəb tədbirlərində fəal iştirakına görə məktəb rəhbərliyi tərəfindən " Fəxri diplom" a layiq görülüb. Boş vaxtlarını da dərsləri ilə məğul olan, intellektual yarışlar izləyən, musiqi dinləyən Solmazın ailəsi 2 nəfərdən ibarətdir. Anası Həşimova Aygün Fuad qızı, evdar xanımdır, orta təhsillidir və qızı Solmazın arxa-dayağıdır. Əlindən gələni onun üçün edir və qızının uğurlarına hər daim sevinir. Solmazda qeyd edir ki, həyatdakı idealı, örnəyi anasıdır və ona sonsuz minnətdardır. Atası Həşimov Elxan Hilal oğlu, Solmaz 10 aylıq körpə olarkən rəhmətə gedib. O, anası ilə birlikdə babasıgildə yaşayır. Babası Həşimov Fuad Saday oğlu onun təlim-tərbiyəsi, təhsili ilə geniş şəkildə məşğul olur. Bir baba kimi nəvəsinin hər bir əziyyətini çəkən Fuad müəllimə biz də öz adımızdan təşəkkürümüzü bildiririk.

Biz də öz jurnalımız adından Solmaza uğurlarının daha da bol olmasını diləyirik və zamanla arzularına çatmağını arzulayırıq. Səsin daim yüksəklərdən gəlsin, ömür yolun parlaq olsun! Qoy anan və doğmaların hər zaman səninlə qürur duysun, sənin qazandıqlarınla fəxr etsin.



# YUSİFOVA NİGAR





**"Bütün elmlərin təməli təhsillə qoyulur"**

***(Əbu Turxan)***

Təhsil bizim gələciyimiz ölkəmizi dünyaya tanıtmaq üçün bilik, savaddır. Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən islahatlar deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir. Bundan əlavə zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca istiqamət seçib. Təhsil cəmiyyətin əsas hərəkətverici, inkişafetdirici qüvvəsidir.

Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. Gənclərimiz öz tarixini öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız gənclərin bugünki və gələcək mənəviyyatı bununla bağlıdır.

Müsahibəmizin növbəti qəhrəmanlarından biri də Yusifova Nigar Vüsal qızıdır.

Yusifova Nigar Vüsal qızı 13 oktyabr 2009-cu ildə Bərdə rayonunun Gərənə kəndində anadan olmuşdur. 2015-ci ildə H. Zeynalov adına Gərənə kənd tam orta məktəbinə daxil olub və hal-hazırda həmin məktəbin 4"b"sinifində oxuyur. Hər zaman dərslərinə hazırlıqlı olan öyrənməyə xüsusi həvəsi olan məsuliyyətli balamız sinif müəllimi olan Dürdanə müəllimin hörmətini və sevgisini qazanıb. Dürdanə müəllim Nigarın çox çalışqan və digər şagirdlərə nümunə olduğunu qeyd edib.

Nigarla apardığımız müsahibədən aydın oldu ki, onun ən sevimli fənni Azərbaycan dilidir. Doğma dilinə bağlı olan Nigar bildirib ki, mənim dilim poeziya dilidir, şirin layla dilidir, ecazkar mahnı dilidir. Mənim ana dilim dosta məhəbbət, düşmənə nifrət dilidir. Gələcək peşəsini də indidən seçən Nigar bildirib ki, arzum yüksək bal toplayıb Tibb Universitetinə daxil olub peşəkar həkim kimi ixtisaslaşmaqdır. Bu peşənin məsuliyyətini başa düşən Nigar bildirib ki, bu sənət geniş ruhiyyə və insanlığa dərin məhəbbət tələb edir. Həkim olmaq üçün məsuliyyət daşımalı, öz üzərində çoxlu işləməli,mütaliələr aparmalısan.

Nigarın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Yusifov Vüsal Akif oğlu 9 iyul 1980-ci ildə Bərdə rayonunun Gərənə kəndində anadan olub. Orta təhsillidir.

Anası Yusifova Gülnar Tərlan qızı 1990-cı ildə Bərdə rayonunun Gərənə kəndində anadan olub. Səmimi, qayğıkeş, mehriban ana daim övladlarının daim təlim-tərbiyəsi ilə yaxından maraqlanır.

Nigarın 2 qadaşı var.

Yusifov Məhəmməd Vüsal oğlu 7 aprel 2012-ci ildə Bərdə rayonunun Gərənə kəndində anadan olub. Hal-hazırda 1-ci sinifdə oxuyur.

Yusifov Akif Vüsal oğlu 5 oktyabr 2008-ci ildə Bərdə rayonunun Gərənə kəndində anadan olub. Hal - hazırda 4-cü sinifdə oxuyur.

"Çağdaş Təhsil" jurnalı heyəti adından Nigar balamıza uğurlar arzulayırıq. Uğurları bol, arzuları çin, həyatı parlaq olsun!

# ƏMƏNOVA ZÜLFİYYƏ




**”Kitablar qocalıqda ən yaxşı dost, cavanlıqda ən yaxşı rəhbərdirlər”**

***(Smayls)***

Elmin mənbəyi evimizdən, bağçadan və məktəbdən başlanır. Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir. Bu işdə bilikli, dünyagörüşlü, milli dəyərlərimizi ifadə edən müasir texnikaya, onun nailiyyətlərinə yiyələnmiş vətənpərvər, fədakar müəllimlərimiz böyük rol oynayır.

Daş-qaş əvəzinə özünə bilik yığsan daha çox tanınarsan: ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz. Bilik insanın zinəti, bəzəyidir. Bir insanı geyiminə görə qəbul edib, ağlına, dünyagörüşünə görə qiymət verib yola salarlar ifadəsi də dilimizdə səbəbsiz yerə yaranan və tez-tez işlədilən aforizm deyildir. Elm-təhsil önəmlidir.

Qazandığı bilikləri özündə bir sərvət kimi saxlayan və daha da irəliyə aparmağa çalışan şagirdlərimizdən biri də Zülfiyyədir. O,təhsilin, savadın insan həyatındakı önəmini də, vacibliyini də yaxşı başa düşür, insan həyatında faydasını dərk edir.

Əmənova Zülfiyyə Vasif qızı 24 sentyabr 2008-ci ildə Sabirabad rayonu Azadkənd kəndində anadan olub. 2014-cü ildə İbrahim Məmmədov adına tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 5-ci sinif şagirdidir. Məktəbə başladığı ilk günlərdən dərslərinə olan marağı onu sinifdə digər yoldaşlarından fərqləndirib. Məsuliyyəti və çalışqanlığı ilə müəllimlərinin sevgisini və hörmətini qazanan Zülfiyyə hər zaman dərslərinə hazır olub və sinif əlaçıdır. Hazırda da sinif əlaçısı olan Zülfiyyənin bütün dərslərə olan marağı onu dərslərində əlaçı olmağa sövq edib, lakin ən sevdiyi fənlər riyaziyyat, Azərbaycan dili, və bu fənləri ona sevdirən Qarayeva Gülnar müəllim isə ən sevimli müəllimidir. Zülfiyyənin məqsədi dərslərini əla oxuyub gələcəkdə uşaq həkimi olmaqdır. O, deyir ki, vətəninə, millətinə layiqincə xidmət edib,bütün xəstə uşaqlara şəfa vermək istəyir. Müsahibimiz onu da qeyd edir ki, vətəninin sağlam gələcəyi üçün öz şərəfi ilə çalışmaq və sağlam sabahı olan uşaqlar görmək onun ən böyük arzusudur. Rəsm çəkmək kimi bacarığı olan və bu sahədə bir çox nailiyyətlər qazanan Zülfiyyə boş vaxtlarını rəsm çəkmək və kitab oxumaqla dəyərləndirir. Onun ən böyük dəstəkçiləri valideynləridir. Onlar hər zaman çalışırlar ki, Zülfiyənin parlaq gələcəyi üçün əllərindən gələni etsinlər. Onun ailəsi 5 nəfərdən ibarətdir. Atası Əmənov Vasif Arif oğlu, hazırda komendant işləyir. Anası Əmənova İlahə Bayram qızı, evdar xanımdır. İki əkiz qardaşın bir bacısı olan Zülfiyyə hər daim qardaşlarının yanında olur, onlara bir bacı kimi öz dəstəyini göstərir. Qardaşları Əmənov Arif Vasif oğlu və Əmənov Yusif Vasif oğlu, ikisi də 2-ci sinif şagirdidirlər.

Biz də öz jurnalımız adından Zülfiyyə balamıza gələcək həyat yolunda uğurlar diləyir, bütün arzularına çatmağı arzu edirik. Hər zaman valideynlərinin və müəllimlərinin fəxri olasan və səsin daim ucalardan gəlsin. Yolun açıq olsun!



# HƏŞİMZADƏ FUAD






**”Elm adamlarının qiymətini bilməyən, onlara layiq olduqları mükafatı verməyən ölkələr inkişaf edəcəklərinə ümid bəsləməsinlər”**

***(Volter)***

İnsanın bildiyi və öyrəndiyi şeylər bilmədiyinin müqabilində heç dərəcəsindədir. Təhsil üçün deyil, təhsil onlar üçündür. Hədəf və məqsədi bəlli olan bir elm - sahibi üçün əbədi davam edəcək bərəkət qaynağı və tükənməz bir xəzinədir. Bu xəzinəyə malik olanlar yaşadıqları müddət ərzində hətta daha sonraları da bir şirin su qaynağı kimi daim ziyarət edilir və xeyrə vəsilə olurlar. Məhşur yunan müdriklərindən biri olan Solonun bu fikri ayrı-ayrı insanlara deyil bütün bəşəriyyətə söylənilən nəsihətlərdən biridir: “Nə qədər ki, yaşayırsan öyrən, gözləmə ki, qocalıq gələndə sənə kamal gətirəcək. ”

Həyat yolunda da öyrənməyi, təhsil almağı, bilik qazanmağı seçən şagirdlərimizdən biri də Həşimzadə Fuaddır.

Həşimzadə Fuad Şamxal oğlu 26 iyun 2011-ci ildə Sabirabad rayon Azadkənd kəndində anadan olmuşdur. 2017-ci ildə Sabirabad rayon İbrahim Məmmədov adına Azadkənd kənd tam orta məktəbin 1-ci sinfinə getmişdir. Məktəbə qədəm basdığı ilk gündən həm çalışqanlığı və zəkası ilə, həm də təlim-tərbiyəsi ilə müəllimlərinin diqqət mərkəzində olmuşdur. Hal-hazırda həmin məktəbin 2-ci sinifində təhsil alır. Fuadın ən çox sevdiyi fənn Azərbaycan dili, ən çox sevdiyi müəllim isə Əmənova Nuranə müəllimdir. Arzuladığı peşə gələcəkdə mühəndis olmaqdır. Vətəninə, millətinə şərəflə peşəkarcasına xidmət etməkdir. Fuad həm müəllimlərinin, həm də valideynlərinin fəxri olmağı arzu edir. Əlaçı və nümunəvi şagird olan Fuad boş vaxtlarında: “Sağlam bədəndə, sağlam ruh olar“ -deyib idmanla məşğul olur. Fuadın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Həşimov Şamxal Fuad oğlu, mühasib işləyir. Anası Həşimova Nahidə Sadıq qızı, evdar xanımdır. Bacısı - Həşimova Zenfira Şamxal qızı, 3-cü sinif şagirdidir.

Biz də öz jurnalımız adından Fuada uğurlarının bol olmasını diləyirik. Valideynlərinin və üzərində əziyyəti olan hər kəsin daim fəxri və sevinci olasan. Bir ömür öz halal mübarizən və zəhmətinlə xoşbəxt və firəvan yaşayasan!

# HƏŞİMZADƏ ZENFİRA





**"Elmdə heç bir ideya ehkam deyil; hər bir adam ən məşhur alimin ən çox yayılmış ideyasını da istənilən vaxt yenidən yoxlamaq səlahiyyətinə malikdir"**

***(Əbu Turxan)***

Elm yaranandan inkişaf etməkdə davam edir. Elm yarandıqdan sonra hər şey zaman-zaman onun qiyafətinə bürünüb səliqə-sahman tapdı və günlərin birində o özünə də öz donluğundan paltar biçmək fikrinə düşdü. Elmin vacibliyini 21-əsr insanı olaraq hər addımımızda görür və açıq hiss edirik. Çünki savadlı insanla söhbət hər hansı bir yaxşı kitabı oxumaq qədər dəyərlidir və dəyərin qiyməti istənilən çəkidəki qiymətli xəzinədən artıqdır. Elm, təhsil, savad, bilik yolunda irəliləməyə çalışan şagirdlərimizdən biri də Həşimzadə Zenfiradır.

Həşimzadə Zenfira Şamxal qızı 11 dekabr 2009-cu ildə Sabirabad rayon Azadkənd kəndində anadan olub. 2016-ci ildə Sabirabad rayon İbrahim Məmmədov adına Azadkənd kənd tam orta məktəbin birinci sinfinə getmişdir. Zenfira məktəbə başladığı ilk vaxtlardan dərslərindəki fəallığına görə digər şagirdlərdən seçilirdi. Hal-hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. Oxuduğu illər ərzində dərslərində əlaçı olmuş və müəllimlərinin sevgisini qazanmışdır. Elə məktəbə qədəm qoyduğu ilk gündən dərslərə olan marağı, istedadı onu savad qazanmaq yoluna yönləndirmişdir. Zenfiranın bir çox uğur və nailiyyətləri ilə yanaşı, "Avropa" kurslarında keçirilən imtahanlarda 1-ci yeri tutduğuna görə qızıl medalla təltif olunmuşdur, həmçinin də "Fəxri Diplomu" da var. Onun ən çox sevdiyi fənn riyaziyyat fənnidir, ən çox sevdiyi müəllimləri isə Ülkər müəllim və Əminə müəllimdir. Zenfiranın gələcəkdə uğur qazanmaq istədiyi peşə rəssamlıq peşəsidir. Bu yolda isə onun ən böyük dəstəkçiləri müəllimləri və valideynləridir. Boş vaxtlarında kitab oxumağı sevən Zenfira savad qazanmaq yolunda özünə kitabları yoldaş seçmişdir. Həmçinin də boş zamanını test işləməklə və anasına kömək etməklə dəyərləndirir. Zenfira gələcəkdə böyük uğurlara imza atmaq istəyir. Onun ailəsi 4 nəfərdən ibarətdir.

Atası Həşimov Şamxal Fuad oğlu mühasib işləyir. Anası Həşimova Nahidə Sadıq qızı, evdar xanımdır. Qardaşı Həşimov Fuad Şamxal oğlu, 2-ci sinif şagirdidir.

Biz də öz redaksiyamız adından Zenfiraya uğurlar arzulayırıq. Müəllimlərinin və valideynlərinin fəxri olmağını diləyirik. Hər daim səsin yüksəklərdən gəlsin. Yolun açıq olsun!



# ƏMƏNLİ YUSİF




**"Kitabı müəllif, onun aqibətini isə cəmiyyət yaradır"**

***(Viktor Hüqo)***

Bir kitabı hər hansı bir müəllif yaradırsa, onun aqibətini isə cəmiyyət yaradır. Bir cəmiyyətin maariflənməsi isə onun ziyalılarının aktiv fəaliyyəti ilə yanaşı məxsus olduğu cəmiyyətin maariflənməsində maraqlı olmalıdır. Belə ki, bir ziyalı, ciddi kitab müəllifi hər zaman xaldın düşünən təfəkkür sahibi, problemləri dilə gətirən obyektiv həqiqət çarçısıdır. Əgər bir cəmiyyətin ziyalısı yaltaq və təkəbbürlü olarsa onda onun cəmiyyətin formalaşmasında, maariflənməsindəki xidmətindən danışmaq yersizdir.

Bilikli insan hərtərəfli olduğu üçün hər hansı bir çətin vəziyyətdən çox asanlıqla çıxa bilir. Belə insanlar ziyalılığın göstəricisi kimi güclü ünsiyyət bacarığına da yiyələnmiş olur. Belə ki, dili, ünsiyyəti güclü olan insan malik olduğu bilik və bacarığını daha rahat, başa düşüləcək tərzdə ifadə etmək qabiliyyətindədir. Budur ziyalılıq. Əmənli Yusif Vasif oğlu da belə düşünən, aydın təfəkkür daşıyıcısı olan məktəblilərdəndir.

Əmənli Yusif Vasif oğlu 30 yanvar 2011-ci ildə Şirvan şəhərində anadan olub. Dünyaya gəlişi ilə əkiz qardaşı Arif ilə valideynlərinə sevinc hissi bəxş edən Yusif balamız valideynlərinin göz nuruna çevrilmişdirlər. 2017-ci ildə İbrahim Məmmədov adına Azadkənd kənd tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 2-ci sinif şagirdidir. Çox çalışqan və məsuliyyətli şagird olan Yusif, məktəbə gəldiyi ilk gündən öz müəllimlərinin sevimlisinə çevrilməyi və onların hörmətini qazanmağı bacarmışdı. Bütün fənlərə maraqla və sevgi ilə yanaşan Yusifin ən sevdiyi fənn isə "Oxu" dur. Bu günkü uğurlarına və gələcəkdə əldə edə biləcəyi nailiyyətlərinə görə öncədən bütün müəllimlərinə minnətdar olan Yusif hər bir müəllimini ayrı bir sevgiylə sevsə də ən sevdiyi müəllimi Nüranə müəllimdir. O, uğura gedən yolda özünə yol yoldaşı olaraq kitabları və o kitabları onun üçün doğmalaşdıran, sevdirən müəllimlərini seçmişdir. Hər bir qərarında valideynləri ən böyük dəstəkçiləri olmuşdur. Ailəsi əllərindən gələni edirlər ki, Yusif və həmçinin də əkiz qardaşı Arif və bacısı Zülfiyyə ali təhsil alsın, savadlı, bilikli bir insan kimi, vətəninə,xalqına layiqli bir övlad kimi yetişsinlər. Yusifin arzusu gələcəkdə yüksək ali təhsil alıb işini peşəkarcasına yerinə yetirməyi bacaran mühəndis olmaqdır. Bunun üçün o, indidən qarşısına məqsəd qoyub israrla istəyinə doğru addımlamalı və arzusuna çatmaq üçün çox oxumalı və öyrənməlidir. Boş vaxtlarını dərslərini oxumaqla və idman etməklə dəyərləndirən Yusifin ailəsi 5 nəfərdən ibarətdir.

Atası Əmənov Vasif Arif oğlu, komendant işləyir. Anası Əmənova İlahə Bayram qızı,evdar xanımdır. Bacısı Əmənova Zülfiyyə vasif qızı,5-ci sinifdə oxuyur. Qardaşı -Əmənli Arif Vasif oğlu 2-ci sinif şagirdidir.

Biz də öz jurnalımız adından Yusifə gələcək həyat yolunda uğurlar arzu edir və qazandığı nailiyyətlərlə valideynlərinin və müəllimlərinin fəxri olmağını diləyirik. Yolun açıq olsun!

# ƏMƏNLİ ARİF



**”Övladım! Vaxtının bir hissəsini elm öyrənməyə ayır!**
**Çünki heç bir şey elmdən usaqlaşmaq kimi insan ömrünü məhv etmir”**

***(Loğman)***

Bilik xəzinədir. Elm, bilik o qədər həzz mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilər. Öyrənilməsi lazım olanlar həddindən artıq çox, insan həyatı isə olduqca qısadır. Biliksiz həyat həyat deyil. O adam məharətlidir ki, çox əziyyət çəkmədən elmə yiyələnir. Çox şeyi başqalarından öyrənir, hamının müdrikliyindən və qabiliyyətindən bəhrələnir. Yaşayaraq əldə edilən bilik daş üzərinə həkk edilmiş yazıdır. Biz elmi-texniki tərəqqi əsrində yaşayırıq. Bu əsr elə bir əsrdir ki, bu zamanda cəmiyyətin inkişaf templəri, onun iqtisadi inkişafı birbaşa olaraq bilik və elmdən asılıdır. Bunu dərk edib, elmlə yaxından tanış olmağa can atan ağıllı məktəblilərdən biri də Arifdir.

Əmənli Arif Vasif oğlu 30 yanvar 2011-ci ildə Şirvan şəhərində anadan olmuşdur. Dünyaya gəlişi ilə əkiz qardaşı Yusif ilə birlikdə ailəsinə sevinc hissi bəxş edən Arif 2017-ci ildə İbrahim Məmmədov adına Azadkənd kənd tam orta məktəbinin 1-ci sinfinə daxil olmuşdur. Hal-hazırda həmin məktəbin 2-ci sinifində təhsil alır. Arif dərslərini yaxşı oxuyur və öz tərbiyəsi, ağlı, savadı və bacarıqları ilə həm müəllimlərinin, həm də sinif yoldaşlarının rəğbətini qazanmışdır. Onun ən çox sevdiyi fənn Ana dili fənni, ən sevimli müəllimi isə Nuranə müəllimdir. Boş vaxtlarında idmanla məşğul olan Arif, həm də dərslərini oxumağı, təkrarlamağı da yaddan çıxarmır. Onun ailəsi 5 nəfərdən ibarətdir. Atası Əmənov Vasif Arif oğlu, komendant işləyir. Anası-Əmənova İlahə Bayram qızı,evdar xanımdır. Bacısı-Əmənova Zülfiyyə Vasif qızı,5-ci sinifdə oxuyur. Qardaşı-Əmənli Yusif Vasif oğlu,2-ci sinif şagirdidir. Valideynləri övladlarının uğurları ilə fəxr edir və daima onları dəstəkləyirlər.

Arif gələcəkdə peşəkar polis olmaq istəyir və bunun üçün bu yaşından etibarən oxuyaraq çalışır ki, gələcəkdə bütün arzularına çatsın. Biz inanırıq ki, Arif gələcəkdə öz arzusuna çatacaq və asayişin keşiyində ədalətli bir şəkildə dayanacaq vicdanlı və ədalətli polis nəfəri olacaq. Bu yolda ona uğurlar arzu edirik. Yolun daima açıq olsun!Səsin hər daim yüksəklərdən gəlsin!



# ŞƏRİFOV İBRAHİM





**Şair xalqın səsi,əsrin səsidir,**
**Vətənin ağsaçlı sərkərdəsidir,**
**Hökmüylə ordular ayağa qalxır,**
**Şerinin nəhrində daşlar da axır.**

**(M. H. Şəhriyar)**

Həyat və güzəranımızı daha mənalı etmək, səmərəli yaşamaq üçün daha çox təhsilə, savada yiyələnməliyik. Savadlı, təhsilli insanla ünsiyyət qurarkən heç yorulmursan. Əksinə onun söhbətindən bir rahatlıq, sakitlik duyursan. Müsahibindən bəzən heç oxumadığın, eşitmədiyin tarixi faktlar, gözəl kəlamlar eşidirsən. Bunlar insan ruhunu qidalandırır, rahatladır. Bilik insanı güclü edir. Çünki bilikli insan həm də ziyalı olur. Ona görə ki, belə insanlar yaşadığı cəmiyyətin bütün keyfıyyətlərini, mənsub olduğu millətin zəngin mənəvi dəyərlərini, tarixi şəxsiyyətlərini tanıyır, dilini, dinini təbliğ edir. Bu cür insanlar eyni zamanda yaşadığı müasir cəmiyyətin nail olduğu texnologiyanın, müasir avadanlıqların və onlarla davranış mədəniyyətinə də sahiblənirlər. Bilikli insan hərtərəfli olduğu üçün hər hansı bir çətin vəziyyətdən çox asanlıqla çıxa bilir. Belə insanlar ziyalılığın göstəricisi kimi güclü ünsiyyət bacarığına da yiyələnmiş olur. Belə ki, dili, ünsiyyəti güclü olan insan malik olduğu bilik və bacarığını daha rahat, başa düşüləcək tərzdə ifadə etmək qabiliyyətindədir. Özünü və gələcəyini daha da yaxşı qurmağa çalışmaq savadlı olmaq və savadlı kadrlar yetişdirmək lazımdır. Buna misal olaraq savadı və bacarığı ilə jurnalımızın qəhrəmanı olan Şərifov İbrahim Firdovsi oğlunu oxuculara tanıtmaq istəyirik.

Şərifov İbrahim Firdovsi oğlu 9 sentyabr 2005-ci ildə Biləsuvar rayon Yuxarı Cürəli kəndində anadan olmuşdur. 2011-ci ildə Biləsuvar rayon Təyyar Əliyev adına Yuxarı Cürəli kənd tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 8-ci sinif şagirdi olan İbrahim oxuduğu illər ərzində əlaçı şagird olmuşdur. Məktəbə başladığı ilk günlərdən müəllimlərinin sevgisini və rəğbətini öz tərbiyəsi, çalışqanlığı ilə qazanmışdır. İbrahim ona tədris olunan bütün fənləri sevir, ən çox sevdiyi fənn isə riyaziyyat və fizika,ən çox sevdiyi müəllimləri isə elə fənn müəllimləri olan Məmmədov Vüsal və Hüseynli Yaşar müəllimdir. İbrahimin arzusu gələcəkdə həkim olmaq və vətəninə layiqli xidmət göstərməkdir. Onun bir çox uğur və nailiyyətləri, həmçinin də bir çox diplomları var. Məqsədi dərslərini əla qiymətlərlə oxumaq və ali məktəbə qəbul olmaqdır. Onun ən böyük dəstəkçiləri isə valideynləri və müəllimləridir. İbrahim yaşının az olmasına baxmayaraq valideynlərini sevindirməyi və onların fəxri olmağı bacarır. İbrahim dərsləri ilə yanaşı boş vaxtlarında idmanla məşğul olur, futbol oynayır. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası Şərifov Firdovsi İbrahim oğlu, müəllim işləyir,1973-cü il 21 apreldə anadan olub. Anası Nuriyeva Şəbnəm Əlican qızı 12 mart 1983-cü ildə anadan olub, evdar xanımdır. Qardaşı Şərifov Sənan Firdovsi oğlu 10 fevral 2007-ci ildə anadan olub, məktəblidir.

Biz də öz növbəmizdə İbrahimə uğurlar arzulayır, müvəffəqiyyətlərinin daimi olmasını diləyirik. Yolun açıq, ömrün parlaq olsun!

# ABDULLAYEV ƏSGƏR



**Dünyada nə qədər kitab var belə**
**Çalışıb əlləşib gətirdim ələ**
**Oxudum, oxudum, sonra da vardım**
**Hər gizli xəznədən bir dürr çıxardım.**
***(Nizami Gəncəvi)***

Bizi əhatə edən aləm elmin, təhsilin və müasir texnikanın uğurlu nailiyyətlərinə əsaslanır. Elm olmasa dünyanın bütövlükdə inkişafı, dəyişərək yeni mərhələlərə keçid alması mümkün olmaz. Savadlı və təhsilli gəncliyin olması elmə verilən dəyərdən asılıdır. Savadsız, elmsiz insanlar ömürlərinin sonuna qədər hər yerdə əziyyət çəkirlər. Onlar su üzündə gəmi kimidirlər. Dədə babalarımızın hamısının savadı olmayıb. Belə bir atalar sözü var: Alim olmaq asandı insan olmaq çətin. Təhsilli gələcəyə verilən ən böyük dəyər istedadlı və savadlı şagirdlərin uzə çıxarılmasıdır. Belə istedadlı şagirdlərimizdən biri də Abdullayev Əsgər Famil oğludur. Növbəti jurnal yazımız onun tərcümeyi halı haqqındadır.

Abdullayev Əsgər Famil oğlu 26 noyabr 2006-cı ildə Sabirabad rayon Azadkənd kəndində anadan olmuşdur. 2013-cü ildə Sabirabad rayon İbrahim Məmmədov adına Azadkənd kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur. Məktəbə başladığı ilk günlərdən dərslərində fəal olan Əsgər müəllimlərinin sevgisini qazanmışdır. Çalışqan, bacarıqlı şagirdlərdən olan Əsgər müəllimlərinin onda elmə, təhsilə, savada oyatdıqları maraqdan irəli gələrək qarşısına ali məktəbə qəbul olmaq və savadlı bir kadr kimi yetişməyi məqsəd qoymuşdur. Hal-hazırda həmin məktəbin 6-cı sinif şagirdi olan Əsgərin arzusu məktəbi bitirib ali məktəbə qəbul olub pilot olmaqdır. O bütün müəllimlərini sevdiyini deyir çünki, ona elm, savad yolunda ən böyük dəstəyi onlar verir. Amma, aralarında Xatirə, Zərbəyim, Lalezar, Aybəniz və Qiyasəddin adlı müəllimlərini xüsusi bir sevgi ilə sevir. O, ona tədris olunan bütün fənləri maraqla öyrənir və ən əsasda riyaziyyat, Azərbaycan dilini, rus dilini, tarixi və musiqini sevir. Boş vaxtlarında kitab oxumaq, çoxlu mütaliələrlə məşğul olmaq onun üçün dəyərli bir işdir. Yaşının az olmağına baxmayaraq, Əsgər deyir ki, nə qədər kitab oxusa, bir o qədər çox bilik, savad yiyəsi olar, dünyagörüşü artar, nitqi aydınlaşar. Onun həyatındakı ən böyük dəstəkçiləri ailəsidir. 5 nəfərdən ibarət olan ailəsi hər zaman, hər qərarında Əsgərin yanında olurlar. Sinif əlaçısı olan balamız, həm də " Avropa " kurslarının təşkil etdiyi bilik yarışmasında 2-ci yerə çıxıb. Valideynləri onun oxuması, ali təhsil alması, savad, billik qazanması üçün əllərindən gələni ondan əsirgəmillər. Atası Həsənov Famil Aslan oğlu usta işləyir. Anası Həsənova İlahə Sulduz qızı evdar xanımdır. Qardaşı Həsənov İsmayıl 4-cü sinifdə oxuyur. Bacısı Leyla Həsənlinin 5 yaşı var.

Biz də öz növbəmizdə Abdullayev Əsgərə həyat yolunda bol-bol uğurlar arzu edir, ona vətənə layiq vətəndaş, valideynlərinə layiq övlad, müəllimlərini öz uğurları ilə sevindirən və gələcəkdə tələbə adını qazanan məzun olmağı arzu edirik. Səsin daim yüksəklərdən gəlsin!



# YUSİFOV VÜSAL




**"Uşaq xəyalların, arzuların ümid tumurcuğu, ailə qalasının misilsiz sevinc qaynağı, cənnətin qoxusunu dünyada yayan yeganə gül, millətin övladı və ilahi əmanətdir"**
***("Fyüzat" jurnalından)***

Ağıllı olmaq hər şey demək deyil. Əsas mühüm olan bu ağlı yerində istifadə etməkdir. Yerində istifadə olunan ağıl hər şey deməkdir. Müvəffəqiyyətin 4 şərti : bilmək, istəmək, cəsarət etmək və susmaqdır. Həyat pilləkənlərini çıxarkən, insanlara yaxşı davaranmalıyıq ki, çünki enərkən həmin insanlara rast gələcəyik. Müdriklərin bu dahi kəlamlarını öz həyat karvanında bir şüar kimi qəbul edən Vüsal kiçik dərrakəsi ilə dərin düşünməyi bacaran şagirddir. Hər şeydə məna axtaran və dəqiqliyinə gedən Vüsal istedadı, biliyi ilə daima yoldaşlarından seçilir.

Yusifov Vüsal Pərviz oğlu 15 iyul 2005-ci ildə Ağcəbədi rayonunda anadan olmuşdur. 2011-ci ildə Laçın rayon 15 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Hal - hazırda həmin məktəbin 8-ci sinif şagirdidir. Çox tərbiyəli, bir o qədər də ağıllı olan Vüsal, məktəbdə müəllimləri tərəfindən çox sevilir. O, bütün müəllimlərini və ona tədris olunan demək olar ki, bütün fənlərini sevir. Amma Azərbaycan dili və Ədəbiyyat fənnini xüsusi bir maraqla oxuyur, xüsusi bir sevgi ilə yanaşır. O, elmə, savada çox böyük həvəsi olan bir şagirddir. Boş vaxtlarını idman etməklə dəyərləndirən Vüsalın arzusu gələcəkdə idman müəllimi olmaqdır. O bu yolda əmin addımlarla irəliləyir. Ən böyük dəstəkçiləri isə ailəsidir. Vüsal idman sahəsi üzrə bir çox uğur və nailiyyətlər əldə etmiş və dövlətimizin bayrağını dəfələrlə yüksəklərdə dalğalandırmışdır. Belə ki, o,2018-ci ildə keçirilən "26-cı Kingboks" Azərbaycan çempionatının qalibi olub 1-ci yeri tutmuşdur. Daha sonra yenə həmin ilin dekabr ayında Gürcüstanda keçirilən "KingBoks" yarışında final bölümündə erməni rəqibini məğlub edərək 1-ci yerin sahibi olmuşdur, yəni düşmən üzərində qələbəsi ilə ölkəsinin adını şərəfləndirmişdir. Onun bu uğuru ilə çoxları qürurlanmış, eləcə də ailəsi böyük fəxr yaşamışdır. Vüsalın ailəsi 5 nəfərdən ibarətdir. Atası Yusifov Pərviz Məzahir oğlu 1975-ci ildə Ağcəbədi rayonunda anadan olub, ailənin maddi və mənəvi yükünü çəkməklə övladlarının gələcəyi, sabahı üçün əziyyət çəkir. Anası Səlimova Şölə Famil qızı 1981-ci ildə Laçın rayonunda anadan olub, övladlarının qayğı və problemləri, təlim və tərbiyəsi ilə ciddi məşğul olur. Onun Yusifov Vüqar Pərviz oğlu adlı bir qardaşı və Yusifzadə Elmira Pərviz qızı adında bir bacısı var. Hər ikisi məktəblidir. Vüsal hər zaman çalışır ki, ailəsinin və üzərində əməyi olan bütün müəllimlərinin əziyyətini yerdə qoymasın və onların daima fəxri olsun.

Biz də öz jurnalımız adından Vüsal balamızın uğur və nailiyyətlərinin dahada bol olmasını diləyir, inanır və arzu edirik ki, Vüsal balamız həyatda istədiyi yerə gedib çıxacaq və uğurları daima bol , yolu isə işıqlı olacaq. Uğurlar!

# ZABİTOVA ASİYA



**"Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız gənclərin bu günkü və gələcək mənəviyyatı bununla bağlıdır"**

***(HEYDƏR ƏLİYEV)***

Asiya müəllimin uzun illər çəkən elm yolu, şərəfli zəhməti öz şagirdlərinin və onların valideynlərinin çox böyük dəyərinə sahibdir. Bunu onların hər bir sözündən, bəslədiyi rəğbətindən hiss etmək olar. Zabitova Asiya Lətifşa qızı 1 yanvar 1961-ci ildə Özbəkistan Respublikasının Kitab şəhərində anadan olub. " Müəllimin də müəllimi olubdur əlbət " deyiblər. Təbii ki, Asiya müəllim də hələ orta məktəbdə oxuduğu vaxtlardan ona elmi, təhsili sevdirən müəllimlərinin nümunəvi şagirdlərindən olub və müəllimlərinin məsuliyyətindən, öz peşəsini layiqincə və şərəflə yerinə yetirməklərindən qaynaqlanan və gələcək həyat yolunun məqsədi olan müəllimlik peşəsi onun üçün çox dəyərli bir sənət olub. 1968-1978 ci illərdə Özbəkistan Respublikası Kitab şəhərində Ş. Ulyanov adına orta məktəbdə orta təhsil alan Asiya müəllim məktəbi bitirdikdən sonra arzusunun arxasınca gedərək ali məktəbə daxil olur və təhsilini uğurla başa vurduqdan sonra arzuladığı peşəyə yiyələnir. Asiya müəllim artıq uzun illərdir ki, pedaqoji fəaliyyət göstərir. Uşaq vaxtından bu peşəni sevən Asiya müəllim bir müddət Özbəkistanda pedaqoji fəaliyyətlə məşğul olduqdan sonra ailəsi ilə birgə Azərbaycana köçüb. O, 1979-cu ildən 90-cı illərə qədər öz doğma orta məktəbində və Axundbabayı adlı kənd məktəbində müəllim kimi çalışıb. Hal-hazırda Sabirabad rayonu İbrahim Məmmədov adına Azadkənd kənd tam orta məktəbində fəaliyyətini davam etdirir. Şagirdlərinin sevgisini və hörmətini qazanmaq bir müəllim üçün ən önəmli işlərdən biridir. Asiya müəllim də buna nail olan müəllimlərdəndir ki, şagirdlərinin sevgi dolu baxışları onu çox məmnun edir. Bir müəlim üçün bundan gözəl xoşbəxtlik yəqin ki, olmaz. Şagird sevgisi və sayğısı. Müəllimin sinfində nümunəvi şagirdlər üstünlük təşkil



# YUSİFOVA CANSU



**"Elm bir müharibə meydanını xatrladır. Yaradıcı alimlər ön cəbhədə olur və əsl döyüş də burada gedir. Arxa cəbhədə olanların vəzifəsi öndəkiləri silah-sursat və azuqə ilə təmin etmək, tutulmuş ərazilərdə səliqə səhman yaratmaqdır"**

***(ƏLİ TURXAN)***

Elm, savad qazanmaq hər kəsin istədiyi bir şeydir. Amma buna hər kəs nail ola bilmir. Çünki biliyə, savada, təhsilə gedən yol çox keşməkeşli və zəhmət tələb edən bir yoldur. Necə deyərlər, əzyətini çəkməsən bəhrəsini görməzsən. Taberaninin belə bir deyimi var ki, " Qız uşağını gözəlcə tərbiyə edib, Allahu-Təalanın verdiyi nemətlərlə bolluq içində yedirsə, geydirsə, o qız uşağı onun üçün bir bərəkət olar, Cəhənnəmdən qurtulub asanca Cənnətə girməsinə vəsilə olar". Yəni uşaqları dünyaya gətirməklə valideynin tək vəzifəsi bitmir, onlar həm də uşaqlarının gələcəyi üçün çalışmalı və əziyyət çəkməlidir.

Anasının, atasının və bir qardaşının göz nuru olan Yusifova Cansu balamız 20 fevral 2009-cu ildə Şəmkir rayon Zəyəm qəsəbəsində dünyaya göz açmışdır. Dünyaya gəlişi ilə ailəsinə sevinc bəxş edən Cansu 2015-ci ildə Sabirabad rayon İbrahim Məmmədov adına Azadkənd kənd tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 4-cü sinfində təhsil alır. Məktəbə başladığı ilk gündən müəllim və şagird kollektivinin rəğbət və sevgisini qazanan Cansu dərslərə olan marağı onu sinif əlaçısı və qabaqcıl bir şagird olmağa sövq etmişdir. Bütün fənlərini xüsusi bir maraqla oxuyan balamızın xüsusilə riyaziyyat fəninə marağı daha çoxdu. Gələcəkdə həkim olmağı qarşısına məqsəd qoyan Cansuya bu yolda dəstək verənlərdən biri də onun müəllimləridir. Bütün müəllimlərini sevən balamızı ən sevimli müəllimi isə Gülnaz müəllimdir. Cansu həm də sinif əlaçısıdır. Bununla yanaşı " Xəzər " kurslarına gedən Cansunun təhsildə seçilməsinə görə "Tərifnamə"ləri də var. Boş vaxtlarında dərslərini oxuyan Cansu dərslərini oxumağı heç vaxt əksiltmir və həmçinin də digər kitabları da mütaliə etməyi də sevir.

Onun ailəsi 4 nəfərdən ibarətdir.

Atası Yusifov Çingiz İslam oğlu 19 oktyabr 1981-ci ildə Sabirabad rayonunun Azadkənd kəndində anadan olub, fərdi təsərrüfatla məşğuldur. Anası Yusifova Qahirə Ramiz qızı 28 may 1988-ci ildə Şəmkir rayonu Zəyəm qəsəbəsində anadan olub, evdar xanımdır. Qardaşı Yusifli Qadir Çingiz oğlu 8 oktyabr 2011-ci ildə Şəmkir rayonu Zəyəm qəsəbəsində anadan olub, 2-ci sinif şagirdidir.

Biz də öz jurnalımız adından Cansu balamıza gələcək həyatında uğurlar arzu edirik və səsinin daim yüksəklərdən gəlməsini diləyirik. Qoy öyrəndiyin elm hər zaman yolunu nurlandırsın, kiçik uğurlardan böyüklərinə yol açsın!

# HƏMZƏZADƏ TAMERLAN




**"Elm neçə əsrlər ərzində hamılıqla tikilən möhtəşəm bir məbəddir ki, onun hər bir daşını qoymaq bir çox alimlərə bütün ömrü müqabilində müyəssər olmuşdur"**

***(Puankare)***

Yer üzərində ən böyük varlıq insandır. İnsanda isə ən böyük sərvət elmdir. Elmsiz insan çıraqsız ev kimidir. İnsanın başını həmişə onun savadı, biliyi, təhsili ucaldır. Elmli, savadlı insan həmişə sənət və hünər əldə edib yaxşı ad qazanmağa, özündən sonra gələcək nəsillərə xeyirli bir iz qoymağa çalışır. Bütün bunlara ancaq elmin gücü ilə yiyələnmək olar. Elm sahibi insan heç bir zaman həyatını boş yaşamış hesab olunmur. Bir ərəb atalar sözündə deyildiyi kimi " Bilikli adamın bir günü, nadan adamın bütün ömrünə bərabərdir. " Bütün bu deyilənləri özünə həyat şüarı kimi götürən şagirdlərimizdən biri də Tamerlandır.

Həmzəzadə Tamerlan Safəddin oğlu Biləsuvar rayon Yuxarı Cürəli kəndində anadan olmuşdur. 2012-ci ildə Biləsuvar rayon Təyyar Əliyev adına Yuxarı Cürəli kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 7-ci sinif şagirdidir. Sinfinin fəal şagirdlərindən olan Tamerlan, məktəbə qədəm basdığı ilk gündən müəllimlərinin hörmətini qazanmağı bacarmışdır. Bütün fənlərə həvəslə yanaşan Həmzəzadə Tamerlan xüsusilə riyaziyyat, fizika, biologiya, kimya və Azərbaycan dili fənlərini sevir. O, müəllimlərinə daima borclu olduğunu vurğulayır və Vüsal, Vəfa, Tünzalə və Ziyafət adlı müəllimlərinə xüsusi minnətdarlığını bildirir. Onun arzusu gələcəkdə ali məktəbə qəbul olmaq və təhsilini Neft Akademiyasında davam etdirib elə oradaca işə düzəlməkdir və arzuladığı sahədə irəliləməkdir. Onun bir çox uğur və nailiyyətləri var. Həmçinin də Biləsuvar rayonunda keçirilən sınaq imtahanında 4-cü yeri tutub. Boş vaxtlarını televizora baxmaq, futbol oynamaq, kitab oxumaq, mütaliə etməklə dəyərləndirən Tamerlanın məqsədi ailəsinin arzusunu yerinə yetirməkdir. Yəni ali məktəbə qəbul olub savadlı bir ixtisas sahibi olmaq və vətəninə, millətinə layiqli şəkildə xidmət etmək, uğurlu bir şəxsiyyət kimi yetişməkdir. Hər zaman ailəsi onun bütün istəklərinə və qərarlarına hörmətlə yanaşır və əllərindən gələni əsirgəmillər. Tamerlan da deyir ki, çalışıb hər zaman ailəsini və müəllimlərinin fəxri olacaq. Tamerlanın ailəsi 4 nəfərdən ibarətdir. Atası-Həmzəyev Safəddin peşəsi təsərrüfat işçisidir. Anası Nuriyeva Zeynəb, evdar xanımdır. Qardaşı Həmzəzadə Rza 8-ci sinif şagirdidir.

Biz də öz növbəmizdə Tamerlana uğurlar diləyir və gələcək nailiyyətlərinin daha da bol olmasını arzulayırıq. Həyat nə qədər çətin olsa da bütün çətinliklərdən öz ağlı və bacarığı ilə çıxmağı, mübarizə apararaq nail olmağı arzulayırıq. Qoy bu yolda öyrəndiyi, öyrənəcəyi bilik daim köməyi olsun.





edir. Asiya müəllim dərslərini tam yeni metodlarla tədris edir və şagirdlərinin hər məlumatdan xəbərdar olması üçün hər daim əlindən gələni əsirgəməməyə, bildiklərini ötürməyə, öyrətməyə çalışır. Pedaqoji fəaliyyəti dövründə yüzlərlə şagird yetişdirən Asiya müəllim haqqında bəzi valideynlərlə həmsöhbət olduqda çox yüksək və dəyərli fikirlərə sahib olduq. Onların dediyinə görə, Asiya müəllim şagirdlərinin hamısına heç bir fərq qoymadan, səbr və təmkinlə başa salır və gələcəklərini möhkəm təməllər əsasında qurmaqlarına yardımçı olur. Onun pedaqoji fəaliyyəti dönəmində bir çox kurslarda, bilik təlimlərində iştirakı ilə bağlı "Sertifikatlar"ı var ki, bunlar onun ixtisasına necə bağlı bir pedaqoq olmasını göstərir. Asiya müəllimin belə uğurlu gələcəyinin təməlinin qoyulmasında ən böyük dəstəkçiləri ailəsi olmuşdur. Müsahibimiz ilə həmsöhbət olduqda valideynləri haqda onu da qeyd etdi ki,atası Alıyev Lətifşa dünyada ən çox istədiyi və bir insan kimi gözəl insan olub,anası Güldənə Alıyeva haqda çox mehriban və bacarıqlı bir ana olduğunu qeyd etmişdir. Hər iki valideyni dünyada olmasa da onlar haqqında çox xoş təəssüratdadır. Asiya müəllimin özündən böyük 1956 -ci il təvəllüdlü Hənifə Qurbanova adında bacısı və 1963-cü il təvəllüdlü Alıyev Çingiz adında bir qardaşı var. Bacısı Özbəkistanda yaşayır, tibb bacısıdır, qardaşı Azərbyacanda yaşayır, təqaüdçüdür. Mehriban və olduqca səmimidirlər bir-biriləri ilə. Vətəndən uzaq olsa da daim bir-birini arayır və axtarırlar. Maraqlıdır ki, Asiya müəllim eyni zamanda pedaqoji təhsillə yanaşı Özbəkistanda laborant peşəsi üzrə təhsil alaraq bir müddət Çini qablar zavodunda da işləyib. Həmçinin rus, türk və özbək dillərini mükəmməl bilir.

Biz də öz jurnalımız adından Asiya müəllimə gələcək pedaqoji fəaliyyətində uğurlar arzu edirik. Hər zaman şagirdlərinin sevimli müəllimi qalmağı diləyilə ən xoş arzularımızı bildiririk. Yolunuz açıq, uğurlu tələbələriniz isə bol olsun!

# AĞAYEV ƏLİBƏY



**”Əgər mən başqalarından uzaqları görə bilmişəmsə, onda bu, yalnız nəhənglərin çiyinlərində durduğuma görə mümkün olmuşdur”**

***(İSSAK NYUTON)***

Həyatda hər kəs istər ki, müdrik bir insan olsun, doğru- düzgün qərarlar verə bilsin, uzaq görən olsun. Amma unutmaq olmaz ki, müdrik insan çox bilən adam deyil, biliyi xeyirli olan adamdır. İnsan yaşadığı həyat boyunca daim öyrənməlidir, çünki elm dəryadır, o, bitməz və tükənməzdir. Hətta böyük filosof, elm adamları qazandıqları bilik və bacarıqlara görə elmdə özündən nəhənglərə, böyük alimlərə minnətdardırlar. Çünki onları oxuya, öyrənə, kəşf etdikləri ni dərk edərək elm yoluna qədəm qoyublar, onlardan ibrət alıb yola davam ediblər. Bizim də öyrənməyi qarşısına məqsəd qoyan və bu yolda səylə çalışan şagirdlərimizdən biri də Ağayev Əlibəydir.

Ağayev Əlibəy Həsrət oğlu 5 iyul 2010-cu ildə Sabirabad rayonunun Azadkənd kəndində anadan olmuşdur. 2016-cı ildə Sabirabad rayon İbrahim Məmmədov adına Azadkənd kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. Məktəbə başladığı ilk günlərdən dərslərə olan marağı onu elmə, savada gedən yolda ilk addımlarını atmağa məcbur edib. Bu yolda ona həm müəllimləri, həm də kitabları yoldaşlıq edirdi. Əlibəyin ən çox sevdiyi fənlər- Azərbaycan dili, riyaziyyatdır. Onun üçün doğma dilindən şirini, elmlərin şahı sayılan riyaziyyatdan üstünü yoxdur. Bütün müəllimlərini sevərək hörmət edən Əlibəyin ən sevimli müəllimi isə Ülkər müəllimdir. Bu da təbii ki, ilk müəlliminin sevimli və şagirdlərə qarşı istiqanlı olması ilə bağlıdır. Oxuduğu illər ərzində hər zaman fəal və əlaçı olan Əlibəy bu nailiyyətlərinə görə müəllimlərinə və valideynlərinə borclu olduğunu deyir. Onun məqsədi dərsləri yaxşı oxuyub savadlı biri olmaq və gələcəkdə ali tibb təhsili alaraq həkimlik peşəsinə yiyələnməkdir. Bu yolda onun ən böyük dəstəkçiləri valideynləridir. Onlar çalışırlar ki, bir valideyn kimi hər zaman övladlarının hər qərarında onların yanında olsunlar və onlara dəstək olaraq yardımlarını əsirgəməsinlər. Boş vaxtlarını maraqlı nağıllar oxumaqla dəyərləndirən Əlibəyin ailəsi 5 nəfərdən ibarətdir.

Atası Ağayev Həsrət, kiçik bizneslə məşğuldur.

Anası Ağayeva Qumru, evdar xanımdır.

Bacısı Ağayeva Zəhra Həsrət qızı,qardaşı Ağayev Əkbər Həsrət oğlu,2-ci sinif şagirdidir.

Biz də öz jurnalımız adından Əlibəy balamıza uğurlar arzulayır, gələcəkdə uğur və nailiyyətlərinin daha da bol olmasını diləyirik. Daim valideynlərinin və müəllimlərinin fəxri, baş ucalığı, qürur mənbəyi olasan. Yolun açıq olsun!



# MƏHƏRRƏMOV SƏMİD



**”Elm yarandıqdan sonra hər şey zaman-zaman onun qiyafətinə bürünüb səliqə-sahman tapdı və günlərin birində o özünə də öz donluğundanpaltar biçmək fikrinə düşdü : Elm haqqında Elm yarandı”**

***(Çin atalar sözü)***

Elm zamanla qazanılan, kitabların, müəllimlərin, ətrafın vasitəsilə əldə edilən ucalıqdır. Əldə olunan bilik doğru istifadə olunarsa, hər zaman bizim xeyrimizə olar. Ümumiyyətlə insan demək olar ki, hər şeyi qazana bilər, əldə edə bilər lakin, ən önəmlisi onu doğru-düzgün istifadə etməkdir. Elmi kiçik görməmək, onu zamanla, səbrlə əldə etmək lazımdır. Hədəfi,məqsədi bəlli olan bir elm -sahibi üçün əbədi davam edəcək bərəkət qaynağı və tükənməz bir xəzinədir.

Bu xəzinəni tapmaq, əbədi bərəkət qaynağını əldə etməyi özünə məqsəd bilən və bunun üçün çalışanlardan biri də Məhərrəmov Səmiddir.

Məhərrəmov Səmid Seymur oğlu 24 iyul 2010-cu ildə Sabirabad rayon Qalaqayın kəndində ziyalı ailəsində anadan olmuşdur. Dünyaya gəldiyi gündən ailəsinə sevgi bəxş edən Səmid hamının sevimlisinə çevrilməyi bacarmışdır. O, 2016-cı Sabirabad rayon Nəriman Nərimanov adına 2 nömrəli məktəb-liseyin rus bölməsinin 1-ci sinfinə daxil olmuşdur. Səmid hal-hazırda həmin məktəbin 3-cü sinfində əla qiymətlərlə təhsilini davam etdirir. O, müəllimlərinin ən sevimli və məsuliyyətli şagirdlərindən biridir. Sinfinin ən fəal şagirdlərindən olan Səmid çalışqanlığı ilə bir çox sinif yoldaşlarından fərqlənir və 1-ci sinifdən etibarən şəkilini şərəf lövhəsinə vurdurmağı bacarıb. Səmid kiçik yaşlarından təhsili ilə yanaşı,həm də rəsmə maraq göstərib. Bir-birindən maraqlı və rəngarəng rəsmlər çəkməyi, əl işləri sərgiləməyi bacarır. Bütün fənlərə marağı olan Səmidin xüsusi rəğbət bəslədiyi fənlər riyaziyyat və informatikadır. Əlavə olaraq da ingilis dili fənnindən daha da irəlilətmək üçün hazırlığa gedir. Bütün müəllimlərini sevən Səmidin ən sevimli müəllimi isə rayonun istedadlı, qabaqcıl təlimçi müəlimlərindən biri olan Sevinc Məhərrəmovadır. Bacarıqlı şagird olan Səmidin kompüter bilikləri də kifayət qədər yaxşıdır. Uğur və nailiyyətləri yaşıdlarına görə kifayət qədər olan Səmid dəfələrlə məktəb rəhbərliyi tərəfindən ”Tərifnamələr” lə tətif olunmuşdur. Boş vaxtlarında kitab oxuyan və rəsm çəkən Səmid gələcəkdə polis olmağı arzulayır. Vətəninə layiqli, ədalətli və şərəfli xidmət göstərmək onun müqəddəs borcu olduğunu deyir. Bir şagird olaraq əldə etdiyi uğurlarına görə isə öz müəllimlərinə borclu olduğunu deyir, xüsusilə də nənəsi rus dili müəllimi Sevil müəllimə. Səmid həmçinin Sabirabad rayonu Üzeyir Hacıbəyov adına Uşaq musiqi məktəbinin forte-piano şöbəsinin 2-ci sinfində musiqi təhsili alır. Onun ailəsi 4 nəfərdən ibarətdir. Atası Məhərrəmov Seymur mühəndis işləyir. Anası Məhərrəmova Xəyalə xanım ali təhsillidir və hazırda ibtidai sinif müəlimi işləyərək balaca fidanların təhsillənməsində bir ana, vətəndaş, müəllim kimi öz xidmətini layiqli şəkildə yerinə yetirir. Qardaşı Məhərrəmov Azay hazırlıq sinfində olmasına baxmayaraq uğurları ilə ailəsini hər zaman sevindirir. Ailəsi və yaxınları Səmidə uğurlar arzulayır.

Ailəsinin fəxri olan Səmid hər zaman çalışır ki, onların başını uca etsin. Valideynləri də çalışır ki, əllərindən gələni ondan əsirgəməsinlər.

Biz də öz jurnalımız adından Səmidə həyatda tutduğu yolda müvəffəqiyyətlər, bol-bol uğurlar arzu edirik. Yolun daima açıq, ömrün fərəhlə, sevinclə zəngin olsun!

# ABIŞZADƏ GÜLZAR



**"Az pulla böyük sərvət əldə etmək istəyirsənsə, - kitab al!"**

***(Tur Xander)***

Bir xalq yalnız savadlı cəmiyyəti, inkişaf etmiş elmi ilə qürur duya bilər. Yalnız savadlı cəmiyyətlə irəli getmək, uğurlara nail olmaq, ölkəni tanıtmaq mümkündür. Elmin vacibliyini hələ qədim zamanlardan dərk ediblər. Ta qədim zamanlardan elmdə nailiyyətlər əldə etmək üçün çalışıblar. Təbiəti öyrənib, bununla cəmiyyəti məlumatlandırmağa səy göstəriblər.

Məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza,ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır. Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır.

Qazandığı bilikləri özündə bir sərvət kimi saxlayan və daha da irəliyə aparmağa çalışan şagirdlərimizdən biri də Gülzardır. O,təhsilin, savadın insan həyatındakı önəmini də, vacibliyini də yaxşı başa düşür.

Abışzadə Gülzar Vüqar qızı 17 oktyabr 2008-ci ildə Sabirabad rayon Azadkənd kəndində anadan olub. 2014-cü ildə Sabirabad rayon İbrahim Məmmədov adına Azadkənd kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 5-ci sinif şagirdidir. Məktəbə başladığı ilk günlərdən dərslərinə olan marağı onu sinifdə digər yoldaşlarından fərqləndirib. Məsuliyyəti və çalışqanlığı ilə müəllimlərinin sevgisini və hörmətini qazanan Gülzar hər zaman dərslərinə hazır olub və sinif əlaçısı olub. Sinif əlaçısı olan Gülzarın adı hələ 1-ci sinifdən şərəf lövhəsində yer alıb. Onun bütün fənlərə olan marağı onu dərslərində əlaçı olmağa sövq edib, lakin ən sevdiyi fənlər və bu fənləri ona sevdirən müəllimlər isə riyaziyyat fənni və Zərbəyim müəllimdir. Gülzarın məqsədi dərslərini əla oxuyub gələcəkdə ali məktəbə qəbul təhsil almaq və həkim olmaqdır. O deyir ki, vətəninə, millətinə layiqincə xidmət edib, daima valideynlərinin və müəllimlərinin fəxri olmağı arzu edir. Bütün xəstələrə şəfa vermək istəyi,hələ uşaq yaşlarından onun nece xeyirxah və hummanist bir qiz olduğunu göstərir. Gülzarın ailəsi 4 nəfərdən ibarətdir. Atası Abışov Vüqar Qurbanqulu oğlu,usta işləyir. Anası Abışova Gülnar Ağasəlim qızı,evdar xanımdır. Qardaşı Abışov Tunar Vüqar oğlu. Boş vaxtlarını kitab oxumaqla dəyərləndirən Gülzar çalışır ki, ailəsinin əziyyətini daima dəyərləndirsin və başlarını uca etsin. Ailəsi də istəyir ki, onu vətəninə yararlı bir övlad kimi formalaşdırsın.

Biz də öz jurnalımız adından Gülzar balamıza gələcək həyat yolunda uğurlar diləyir, bütün arzularına çatmağı arzu edirik. Hər zaman valideynlərinin və müəllimlərinin fəxri olasan və səsin daim ucalardan gəlsin. Yolun açıq olsun!



# AĞAYEV ƏKBƏR



**"Axmaqlarla oturub-durmaqdansa, kitabla tənha oturmaq yaxşıdır"**

***(Qasım bəy Zakir)***

Ağıl köhnəlməyən geyim, bilik tükənməyən mədən kimidir. Ağıl təkcə bilikdə yox, həm də biliyi işə tətbiq etmək bacarığındadır. Yəni sadəcə insan nəzəri biliyi ilə deyil, o nəzəri bilgilərini tətbiqetmə məharətinə görə qiymətləndirilir. Az bilən və az düşünən çox danışar. Bir insanın biliyi onu çox bəlalardan saxlayar, çünki, bilikli, təhsilli insan öndəki maneələri əvvəlcədən görə bilir və onların həlli yolun axtarmağa başlayır. Bunun da müqabilində bir çox problemlərdən uzaq qala bilir.

Cəlaləddin Ruminin belə bir sözü var ki, "Ağıllıdan gələn cəfa, cahillərin vəfasından yaxşıdır. "Öz ağılına, biliyinə, savadına güvənən və bunu daha da irəliyə aparmağa çalışan şagirdlərimizdən biri də Ağayev Əkbərdir.

Ağayev Əkbər Həsrət oğlu 26 avqust 2011-ci ildə Sabirabad rayon Azadkənd kəndində dünyaya göz açıb. 2017-ci ildə Sabirabad rayon Azadkənd kənd tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Hal- hazırda həmin məktəbin 2-ci sinif şagirdidir. Əkbər elmə, savada çox marağı olan şagirdlərimizdən biridir. Müəllimləri onun haqda çox müsbət fikirlərə sahibdirlər, demək olar ki, ən sevimli şagirdlərindən biri də Əkbərdir. Əkbər ona tədris olunan bütün fənləri və fənn müəllimlərini çox sevir. Ən sevdiyi fənlər Ana dili, ən sevimli müəllimi isə Nuranə müəllimdir. Əkbərin arzusu gələcəkdə polis olmaqdır. Özünündə dediyi kimi,gələcəkdə polis olub vətəninə, xalqına layiqincə və qürurla xidmət etmək onun ən böyük istəyidir. Onun bu istəyi, bu düşüncəsi evində valideynlərinin, məktəbdə isə müəllimlərinin düzgün təlim-tərbiyəsinin və məqsədli təbliğinin nəticəsidir. Biz də öz redaksiyamız adından övladlarımızın düzgün, layiqli bir vətəndaş kimi yetişməsində əziyyəti olan bütün müəllimlərimizə təşəkkürümüzü bildiririk!. Boş vaxtlarını kitab oxumaq, mütaliə etmək və rəsm çəkməklə keçirən Əkbər həm valideynlərinin,həm bacı və qardaşının, həm də nənəsinin sevimlisi və göz nurudur. Əkbərin ailəsi 5 nəfərdən ibarətdir.

Atası Ağayev Həsrət, kiçik bizneslə məşğuldur.

Anası Ağayeva Qumru, evdar xanımdır.

Bacısı Ağayeva Zəhra Həsrət qızı, qardaşı Ağayev Əlibəy Həsrət oğlu 3-cü sinif şagirdidir.

Biz də öz jurnalımız adından Əkbər balamıza bolluca uğurlar arzu edirik və dərslərində nailiyyətlərinin daha da bol olmasını diləyirik. Hər zaman valideynlərinin fəxri olub onların baş ucalığı olması diləyi ilə uğurun bol, yolun açıq olsun!

# QƏDİROV MURAD









Elm, savad, bilik və təhsilin bizim həyatımızda önəmi hamımıza məlumdur. Elm insanın dünyagörüşünü artırmaqla yanaşı, həm də biz də insani keyfiyyətlərin zənginləşməsinə şərait yaradır. Elm, savad insanı aydınlığa aparan yol, onu müdrik bir insana çevirən vasitədir. Hər birinin istəyi savadlı, dünyagörüşlü, bilikli, ziyalı bir şəxs olmaqdır. Bu yolda isə bizə kömək edən, yolumuzu işıqlandıran vasitə elmdir. Savadlı insan həmişə həyatında özünə düzgün yön seçə, doğru qərarlar verə bilir. Elmin, savadın, biliyin mahiyyətini dərk edən və bu yolda irəliləməyə çalışan şagirdlərimizdən biri də Muraddır.

Qədirov Murad Dəyanət oğlu 25 avqust 2006-cı ildə Ağsu şəhərində anadan olmuşdur. 2012-ci ildə Z. Məmmədov adına 103 saylı Xocasən tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 7-ci sinif şagirdi olan Murad oxuduğu illər ərzində əlaçı şagird olmuşdur. Muradın ən çox sevdiyi fənlər biologiya və musiqidir. O, bütün müəllimlərini böyük bir sevgiylə sevdiyini deyir və böyük hörmət hissi bəsləyir müəllimlərinə. Çünki, Murad deyir ki, ona elm, savad yolunda büdrəmədən irəliləməsinə ən böyük dəstəyi valideynlərindən sonra müəllimləri verir. Muradın arzusu gələcəkdə hərbiçi olmaq və vətəninə layiqli xidmət göstərməkdir. O, dərsləri ilə yanaşı boş vaxtlarında idmanla məşğul olur və həm də saz musiqi alətində ifa edir. Murad həm də musiqi məktəbinin saz sinfində 2-ci sinifdə oxuyur. Hazırda idmanın qaydasız döyüş növü ( MMA ) üzrə hazırlaşır. Onun sərbəst güləş üzrə "Fəxri Fərman" və "Diplom"u var. Muradın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Qədirov Dəyanət Zahir oğlu, hazırda təcili yardım işçisidir. Anası Qədirova Aynur Əmirxan qızı hazırda satış meneceri vəzifəsində çalışır. Qardaşı Qədirov Fuad Dəyanət oğlu 4-cü sinif şagirdidir.

Biz də öz növbəmizdə Murada uğurlar arzulayır, müvəffəqiyyətlərinin daimi olmasını diləyirik. Səsin hər zaman yüksəklərdən gəlsin, bütün arzularına çatman diləyi ilə yolun açıq, uğurların davamlı olsun!



# QƏDİROV FUAD









**"Bir mədəniyyəti yox eləmək üçün kitabları yandırmağa gərək yoxdur. Oxumağın qarşısını alın, yetər"**

***(R. Bredberi)***

Elm öyrənən insan həyatda həmişə yaxşını pisdən seçməyə qadirdir. Elm çöldə dostumuz, tənhalıqda munisimizdir. Savadlı insan həmişə sənəd və hünər əldə edib yaxşı ad qazanmağa, özündən sonra gələcək nəsillərə xeyirli bir iz qoymağa çalışmalıdır. Elm ağlın çırağı, insanın əsl üstünlüyüdür. Təhsil alan hər bir kəs özünün həyatda həmişə bir addım öndə olduğunu bilir. Təhsili, biliyi, savadı onun üçün çox vaxt bağlı qapıların açarı olur. "Açılan hər məktəb bir həbsxananın bağlanması deməkdir" deyib Viktor Hüqo. Elm sanki bir müharibə meydanını xatırladır. Yaradıcı alimlər ön cəbhədə olur və əsl döyüş də burada gedir. Savadlı insanla söhbət hər hansı bir yaxşı kitabı oxumaq qədər dəyərlidir, çünki onun dünyagörüşü zəngin, bilgiləri kitab qədər dəyərlidir. Elm, təhsil, savad, bilik yolunda irəliləməyə çalışan şagirdlərimizdən biri də Qədirov Fuaddır. Növbəti yazıda onun haqqında bəhs edəcəyik.

Qədirov Fuad Dəyanət oğlu 29 iyun 2009-cu ildə Bakı şəhərində anadan olub. 2015-ci ildə Z. Məmmədov adına 103 saylı Xocasən tam orta məktəbinin birinci sinfinə getmişdir. Fuad məktəbə başladığı ilk vaxtlardan dərslərindəki fəallığına görə digər şagirdlərdən seçilirdi. Hal-hazırda həmin məktəbin 4-cü sinif şagirdidir. Oxuduğu illər ərzində dərslərində əlaçı olmuşdur. Bir çox uğur və nailiyyətləri ilə yanaşı, həm də idmanın əvvəl sərbəst güləş növü ilə daha sonra isə karate növü ilə məşğul olan Fuadın bu idman sahələri üzrə "Fəxri Fərman"ları var. Həmçinin o, karatenin7-ci kyu dərəcəsi üzərindən dəfələrlə 1-ci yerə layiq görülərək "Diplom"a layiq görülmüşdür. Onun ən çox sevdiyi fənn riyaziyyat, sevimli müəllimi isə Vüsalə müəllimdir. Fuad gələcəkdə hərbiçi olmaq istəyir. Boş vaxtlarını kitab oxumağla, idmanla məşğul olmağla və hazırlığa getməklə keçirir. Fuad savad qazanmaq yolunda özünə kitabları yoldaş kimi seçmişdir. Fuad və qardaşı Murad gələcəkdə böyük uğurlara imza atmaq istəyirlər. Bu yolda onların ən böyük dəstəkçiləri valideynləridir. Onun ailəsi 4 nəfərdən ibarətdir. Atası-Qədirov Dəyanət Zahir oğlu, hazırda təcili tibbi yardım işçisidir. Anası-Qədirova Aynur Əmirxan qızı satış meneceri vəzifəsində çalışır. Qardaşı Qədirov Murad Dəyanət oğlu 7-ci sinif şagirdidir. Murad böyük qardaş olaraq hər zaman ona arxa -dayaqdır.

Biz də öz redaksiyamız adından Fuada uğurlar arzulayırıq. Müəllimlərinin və valideynlərinin fəxri olmağını diləyirik. Uğurların bol olsun.



ÇAĞDAŞ

# TƏHSİL

Xüsusi buraxılış Aprel 2019-cu il (23)



## HEYDƏR ƏLİYEVDƏN

## İLHAM ƏLİYEVƏ








2013-cü ildən nəşr olunan Təhsil Yenilikləri qəzeti və eyni adda xüsusi buraxılış jurnalı əsasən dövlət və dövlətçiliyi təbliğ edir. Öz saylarında daha çox təhsil, təhsildəki yeniliklər haqqında məlumat verir.

Xüsusi buraxılış olan jurnalda istənilən şəxslər öz yazılar ilə çıxış edə bilər. Belə ki, qabaqcıl ziyalılar, müəllimlər, həkimlər, tələbələr, şagirdlər və qeyri-ixtisasın sahibləri öz yazılarını jurnalda çap etdirə bilərlər. Eləcə də 500-dən yuxarı bal toplayan məzunlar, əlaçılar, idmançılar, maraqlı əl işləri olan gənclər, səs qabiliyyəti olan və şeir yazmaq və demək qabiliyyəti olan şagirdlər də jurnala müraciət edə bilərlər.

Onu da qeyd edək ki, jurnal şəhid övladlarına, fiziki əqli cəhətdən zəif olan şagirdlərə, o cümlədən hər iki valideynini itirən şagirdlərə pulsuzdur.

Əziz oxucular! Əgər sizlər də jurnalda məqalə, elan, təbrik və reklam vermək istəyirsinizsə aşağıdakı telefonlarla əlaqə saxlaya bilərsiniz:

Telefon nömrələri:

(070) 077 988 82 83 077 632 22 86 WhatsApp 012 408 91 92

Mail: tehsil_news@mail. ru

Facebook: Tehsil Yenilikleri İnstagram: tehsil_yenilikleri Youtube: Təhsil Yenilikləri



“Çağdaş Təhsil” jurnalının təsisçisi olaraq mən Vüsal Kəlbəcərli 2007-ci ildən 2013-cü ilə qədər 15 kitabın nəşr olunmasında xüsusi köməklik göstərmiş Qəmbər Qurbanova və millət vəkili Cavid Qurbanova öz dərin təşəkkürümü bildirirəm.

Təsisçi:
Vüsal Kəlbəcərli

Baş redaktor:
Ülvi Musayev

Redaksiya heyyəti:
Cavid Qurbanov
Qənbər Qurbanov

“Çağdaş Təhsil”
qəzetinin
Xüsusi buraxılış

Ünvan: Azərbaycan Respublikası
Bakı şəhəri, Mətbuat prospekti
529-cu məhəllə
“Azərbaycan nəşriyyatı”
2-ci mərtəbə

Jurnal Redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib, çap olunmuşdur.

Tiraj - 500

Tel: 077-632-22-92
050-770-21-97
055-334-99-86
012-408-91-92
077-632-22-86
050-877-71-86